Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 247 (7974) CÜMƏ, 2 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Ən islahatçı PREZİDENT, ən islahatçı dövlət

## Azərbaycan “Doing Business 2019” hesabatında 190 ölkə arasında 25-ci yerə yüksəlib

**“Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib”.**

Bu fikirlər oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan “Doing Business 2019” hesabatında öz əksini tapıb.

### Dünyada ən vacib və etibarlı reytinq göstəricisi

Öncə onu vurğulayaq ki, Dünya Bankının hər il hazırladığı “Doing Business” hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur.

“Doing Business” komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

Hesabat xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda (“Qlobal Rəqabətlilik Hesabatı”, “Qlobal İnnovasiyalar İndeksi”, “İqtisadi Azadlıq İndeksi”, “Qlobal İmkanlar İndeksi” və s.) baza rolunu oynayır.

### Bütün hesabatlarda yüksələn reytinq

Milli iqtisadiyyatın əsas inkişaf istiqamətlərini müəyyənləşdirən müstəqil Azərbaycan dünya düzənində özünəməxsus mövqeyini daim möhkəmləndirir. Ümumiyyətlə, çox doğru olaraq Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi səciyyələndirilir. Başqa sözlə desək, Prezident İlham Əliyevin nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq ölkəmizdə güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır.

Dünya Bankı tərəfindən hazırlanan bu hesabatlarda Azərbaycan hər dəfə irəliyə doğru inamla yüksəlir. Əgər 2016-cı ildə Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2017” hesabatında Azərbaycan 65-ci pillədə qərarlaşmışdısa, “Doing Business 2018” hesabatında 8 pillə yüksələrək 57-ci yerə qalxmışdı. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılırdı.

### Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsidir

Cənab İlham Əliyevin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar Azərbaycanın “Doing Business 2019” hesabatında yeni rekorda imza atması ilə nəticələnib.

Qeyd edilir ki, 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub. Aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsinə, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub.

Hesabatda Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunub. Yeni hesabatda ölkəmizin mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəlib.

### Kiçik investorların maraqlarının qorunmasında dünyada 2-ci yerdəyik

Bu göstəricilər bir daha təsdiq edir ki, Azərbaycanda mövcud olan iqtisadi müstəqillik, təhlükəsizlik siyasi müstəqilliyin və genişmiqyaslı inkişafın təminatçısıdır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. İqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib.

Ardı 3-cü səh.

# İlham Əliyev həmsədrlərlə münaqişənin nizamlanma prosesini müzakirə etdi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

# Dünya Bankı da Azərbaycanın MDB-də liderliyini təsdiqlədi

## Yeni hesabata əsasən ölkəmiz 32 pillə irəliləyərək ən çox islahat aparan dövlət statusuna sahiblənib




**Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2019” hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə sırasında 25-ci yerə yüksəlib.**

Ölkəmiz dünyanın bir çox dövlətlərini geridə qoymaqla MDB-də lider mövqeyə yüksəlib. Ümumiyyətlə, son illər ölkəmizdə aparılan islahatlar Azərbaycanın dünyanın ən aparıcı hesabatında mövqeyinin kəskin möhkəmlənməsinə şərait yaradıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq, Azərbaycan bu gün dünyanın ən islahatçı ölkəsi kimi tanınır.

Ardı 3-cü səh.

# Çağdaş dünya, çağdaş insan




**Belə bir maraqlı hekayət var: ata coğrafiya ilə yenicə tanış olmağa başlamış yeddi-səkkiz yaşlı oğlundan ötrü zəka oyunu düşünür. Üzərində dünya xəritəsi əks olunmuş vərəqi hissələrə bölüb, xırda kağız tikələrini masanın üstünə səpir.**

Oğluna dünyanın şəklini birləşdirməyi tapşırır. Özlüyündə fikirləşir ki, uşaq materikləri, qitələri, ölkələri bir-birinə birləşdirməkdən ötrü, yəqin, uzun zaman sərf edəcək. Amma cəmi bir neçə dəqiqədən sonra uşaq masa üzərində tam bərpa etdiyi xəritəni ona göstərir. Ata çox təəccüblənir. Oğlundan bunu necə bacardığını soruşur. Uşaq isə cavab verir ki, vərəqin arxa tərəfində insan şəkli vardı: “Mən insanı düzəltməyə başladım, dünya öz-özünə düzəldi”.

Bu didaktik hekayə dünyanın taleyində, mənəvi mənzərəsində insanın nə qədər mühüm rol oynadığını hər birimizə anladır. Ona görə də insan mövzusu hər zaman yaradıcı sənətin əsasını təşkil edib. Mütəfəkkirlər hər zaman təlqin ediblər ki, insanda hansı keyfiyyəti inkişaf etdirsən, dünyada da həmin keyfiyyət aparıcı olacaq. İnsanın dağıdıcı xislətinin gücləndirilməsi, onun vəhşi ehtirasların əsirinə çevrilməsi dünyanın təhlükələrə sürüklənməsi deməkdir. İnsanın elmdən-bilikdən, maarif işığından uzaq düşməsi dünyanın da qaranlıqlara bürünməsidir. İnsana sevgi isə dünyaya sevgidir, dünyanın insan əli ilə rövnəqləndirilməsinə xidmətdir.

Ardı 4-cü səh.

# 1480 nəfər əsir-girovluqdan azad edilib, 871 vətəndaşımız isə hələ də Ermənistanda qanunsuz saxlanılır



## Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25-ci ildönümü tamam olur

**Noyabrın 1-də Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25 illiyinə həsr olunmuş iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin fəsadlarını əks etdirən fotostendlə, eləcə də müxtəlif dillərdə nəşr edilən kitablar, fotoalbomlar, bukletlər və digər əyani vəsaitlərlə tanış olublar.

İclası giriş sözü ilə açan Dövlət Komissiyasının sədri Mədət Quliyev tədbir iştirakçılarını salamlayaraq, Komissiyanın fəaliyyət göstərdiyi 25 il ərzində görülmüş işlər barədə məlumat verib. Sədr Mədət Quliyev xüsusi qeyd edib ki, Dağlıq Qarabağ problemi ulu öndər Heydər Əliyevə o, hələ Dövlət Təhlükəsizliyi Komitəsində xidmət etdiyi vaxtdan məlum idi. Buna görə də münaqişənin qurbanı olan vətəndaşlarımızın taleyinə həm Naxçıvanda, həm də paytaxt Bakıda işlədiyi zaman xüsusi diqqət yetirirdi. Erməni quldurları Qərbi Azərbaycandakı ata-baba yurdlarında və Dağlıq Qarabağda yaşayan azərbaycanlılarla yanaşı, Ermənistanla sərhəddə yerləşən yaşayış məntəqələrinə, Mehri rayonu ərazisindən keçərək Naxçıvana gedən dəmir yolu xəttinə hücumlar edir, insanlarda vahimə yaradır, məqsədli şəkildə onları qətlə yetirir, işgəncələr verir, əsir və girov götürürdülər.

Bir çox vətəndaşımız itkin düşmüş yaxınlarını axtarmaq və düşmənin nəzarətində olan ərazilərdə qalmış şəhidlərimizin cəsədlərini geri qaytarmaq məqsədilə həmin illərdə Naxçıvan Muxtar Respublikası Parlamentinin deputatı və Ali Məclisin sədri olduğu dövrlərdə ümummilli lider Heydər Əliyevin onlara göstərdiyi köməyi minnətdarlıqla xatırlayır. Dövlət Komissiyasının rəsmi sənədlərində də əksini tapmış ifadələrə əsasən, Ulu Öndər nə qədər çətin olsa da, onlara kömək göstərmiş, üzləşdikləri humanitar problemə yardım etmiş və öz nüfuzu sayəsində onlarla vətəndaşımızın əsir-girovluqdan xilasına, şəhidlərimizin cəsədlərinin alınmasına nail olmuşdu. Dahi rəhbərin bu fəaliyyəti hər bir azərbaycanlı üçün böyük humanizm nümunəsidir.

Ardı 5-ci səh.

# Qərb Ermənistandan tam üz döndərir

## *Yeni ictimai-siyasi gərginlik dövrünə qədəm qoyan ölkə parlament seçkilərinə vətəndaş müharibəsi ab-havası ilə gedir*

**Ermənistanda növbədənkənar parlament seçkilərinin yaxınlaşması fonunda baş nazirin səlahiyyətlərini icra edən Nikol Paşinyanın özünə rəqib gördüyü şəxslərə qarşı təzyiqləri də getdikcə artır.**

Elə bu da Paşinyanın indidən diktatora çevrildiyini aydın surətdə nümayiş etdirir. Yenidən baş nazir vəzifəsinə parlamentdə təsdiq edilməyən Paşinyan üçün bununla yanaşı, əsas məsələ parlamentin buraxılmasına nail olmaq və dekabrda öz nəzarətində olan bir qanunverici orqan formalaşdırmaqdır.

Paşinyan bildirib ki, növbədənkənar parlament seçkiləri dekabrın 9-da keçiriləcək: “Bizdə Seçki Məcəlləsinə dəyişikliklər qəbul olunmadı, lakin Yerevan Ağsaqqallar Şurasına keçirilən seçki mövcud məcəllə ilə keçirildi və heç kim bu seçkiyə şübhə etmir”.

### Rəqiblər bir-bir sıradan çıxardılır

İndi isə növbədənkənar parlament seçkilərinə qədər Paşinyan rəqiblərini sıradan çıxarmaq üçün yeni addımlar atır.

Ardı 5-ci səh.



# Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti aşağıdakı yeni tərkibdə təsdiq edilsin:

**Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin sədri**

Əliyev İlham Heydər oğlu - Azərbaycan Respublikasının Prezidenti

**Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti sədrinin birinci müavini**

Mehdiyev Ramiz Ənvər oğlu - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, AMEA-nın həqiqi üzvü

**Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti sədrinin müavinləri**

Quliyev İbrahim Said oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, AMEA-nın Neft və Qaz İnstitutunun direktoru

Həbibbəyli İsa Əkbər oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru

Rzayev Anar Rəsul oğlu - Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı

**Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru**

Əlizadə Akif Ağamehdi oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın prezidenti, AMEA-nın Geologiya və Geofizika İnstitutunun direktoru

**Azərbaycan Milli Ensiklopediyasının məsul katibi**

Nağıyev Tofiq Murtuza oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru

**Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin üzvləri**

Abiyev Ağacan Qulam oğlu - texnika elmləri namizədi, professor

Bilalov Bilal Telman oğlu - AMEA-nın müxbir üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun şöbə müdiri

Budaqov Tahir Yaqub oğlu - Dövlət Statistika Komitəsinin sədri

Bünyadov Teymur Əmiraslan oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri

Cəlilov Namiq Sərdar oğlu - AMEA-nın müxbir üzvü, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktoru

Eldarov Ömər Həsən oğlu - AMEA-nın həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru

Ələkbərov Urxan Kazım oğlu - AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

Əliquliyev Rasim Məmməd oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın akademik-katibi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru

Əliyev Kamran İmran oğlu - AMEA-nın müxbir üzvü, AMEA-nın Folklor İnstitutunun şöbə müdiri

Əliyev Telman Abbas oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın akademik Əşrəf Hüseynov adına İdarəetmə Sistemləri İnstitutunun direktoru

Əliyeva Fərəh Şirməmməd qızı - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

Əlizadə Firəngiz Əliağa qızı - AMEA-nın müxbir üzvü, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti

Fərzəliyev Vaqif Məcid oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun direktoru

Hacıyev İsmayıl Muxtar oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın Naxçıvan bölməsinin sədri

Hüseynova İradə Məmməd qızı - AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru

Xəlilov Fərhad Qurban oğlu - Azərbaycan Rəssamlar İttifaqının sədri, xalq rəssamı

İsmayılov Amin İsmayıl oğlu - AMEA-nın müxbir üzvü, AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun laboratoriya müdiri

İsmayıl-zadə Arif Cəfər oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın Geologiya və Geofizika İnstitutunun şöbə müdiri

Kərimov Kərim Məmmədxan oğlu - AMEA-nın müxbir üzvü

Kərimov Teymur Həşim oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru

Qədirov Fəxrəddin Əbülfət oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, AMEA-nın Geologiya və Geofizika İnstitutunun şöbə müdiri

Qəribov Adil Əbdülxalıq oğlu - AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi"nin sədri

Mahmudov Yaqub Mikayıl oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru

Məhərrəmov Abel Məmmədəli oğlu - AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin rektoru

Məlikov Arif Cahangir oğlu - AMEA-nın həqiqi üzvü, xalq artisti

Məmmədəliyev Vasim Məmmədəli oğlu - AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin kafedra müdiri

Məmmədov Qərib Şamil oğlu - AMEA-nın həqiqi üzvü

Məmmədov Nazim Timur oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, AMEA-nın akademik Həsən Abdullayev adına Fizika İnstitutunun direktoru

Məmmədova Fəridə Cəfər qızı - AMEA-nın müxbir üzvü, AMEA-nın Tarix İnstitutunun şöbə müdiri

Muradov Şahbaz Musa oğlu - AMEA-nın müxbir üzvü, AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri

Mustafayev Şahin Məcid oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini

Paşayev Arif Mir Cəlal oğlu - AMEA-nın həqiqi üzvü, Milli Aviasiya Akademiyasının rektoru

Rəsulov Əsgər Adil oğlu - Milli Arxiv İdarəsinin rəisi, filologiya elmlər doktoru, professor

Rüstəmov Musa İsmayıl oğlu - AMEA-nın həqiqi üzvü, AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun şöbə müdiri

Salahov Tahir Teymur oğlu - Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı

Səmədzadə Ziyad Əliabbas oğlu - AMEA-nın həqiqi üzvü

Vəlixanlı Nailə Məmmədəli qızı - AMEA-nın həqiqi üzvü, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin direktoru

Yusifzadə Xoşbəxt Bağı oğlu - AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

2. "Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin tərkibinin və Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 aprel tarixli 86 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 231) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2018-ci il*

# Baş nazir Novruz Məmmədov Astana şəhərinə yola düşüb



Noyabrın 1-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının növbəti iclasında iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astana şəhərinə yola düşüb.

AZƏRTAC-a bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

# "Egemen Qazaxıstan" qəzeti Azərbaycanın Baş naziri Novruz Məmmədovun müsahibəsini dərc edib

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun "Egemen Qazaxıstan" qəzetində müsahibəsi dərc olunub.**




Baş nazir Novruz Məmmədov müsahibəsində bildirib ki, MDB-nin iştirakçı dövləti olan Azərbaycan təşkilat çərçivəsində müxtəlif sahələrdə, xüsusən humanitar sahədə əməkdaşlığın inkişafına böyük önəm verir. Mədəniyyət, elm, idman və digər sahələr üzrə həyata keçirilən çoxtərəfli əməkdaşlıq ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Müstəqil Dövlətlər Birliyi regional və beynəlxalq məsələlərin müzakirəsi üçün əlverişli əməkdaşlıq platforması olmaqla bərabər, cinayətkarlığa və müasir təhdidlərə qarşı tədbirlərin həyata keçirilməsinə də öz töhfəsini verməkdədir. MDB Hökumət Başçıları Şurasının Qazaxıstanda nəzərdə tutulan növbəti iclasında üzv ölkələr arasında bir sıra məsələlərin, o cümlədən iqtisadi, maliyyə və humanitar məsələlərin müzakirəsi Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyır.

Müsahibədə qardaş Qazaxıstana səfərin, həmçinin bu ölkə ilə ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə, əməkdaşlıq imkanlarının genişlənməsinə öz töhfəsini verəcəyi qeyd edilib.

Novruz Məmmədov Azərbaycanı və Qazaxıstanı tarixi dostluq-qardaşlıq tellərinin bağladığını, ortaq soy-kök, ortaq mədəni və mənəvi amillərin önəm kəsb etdiyini bildirib. Qeyd edilib ki, Azərbaycanla Qazaxıstan həm də strateji tərəfdaşdırlar. Bizim ölkələrin liderləri, ulu öndər Heydər Əliyevlə Nursultan Nazarbayev hələ sovet dövründən iki dost, qardaş xalqın rəhbərləri kimi sıx əməkdaşlıq şəraitində çalışıblar. Bu dostluq, qardaşlıq ənənəsi müstəqillik illərində daha da inkişaf etdirilib. Azərbaycan Prezidenti İlham Əliyev də Qazaxıstanla ikitərəfli faydalı əməkdaşlığı xarici siyasətimizin prioritetləri sırasında hər zaman vurğulayıb.

Müsahibədə diqqətə çatdırılıb ki, Qazaxıstanın xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan haqlı mövqeyinə ikitərəfli və çoxtərəfli müstəvilərdə dəstəyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Daha sonra bildirilib ki, Azərbaycan və Qazaxıstan Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşir. Hər iki ölkənin marağı bu tranzit xəttin imkanlarından maksimum faydalanmaqdır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Qazaxıstanın qərb və şərq sərhədlərini birləşdirən dəmir yolu xətləri və Kurık dəniz limanı ölkələrimizin tranzit potensialının daha da artırılmasına xidmət edir. Artıq biz Çin-Avropa istiqamətində region ərazisindən yük daşımalarının artdığını görürük. İnanırıq ki, ölkələrimiz arasında mövcud olan bu regional əməkdaşlıq modeli gələcəkdə daha da genişləndirilərək qlobal miqyasda öz töhfəsini verəcək.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci zirvə görüşünün 2019-cu ildə Azərbaycanda keçiriləcəyini söyləyən Baş nazir bu tarixin həmçinin Naxçıvan Sazişinin imzalanmasının 10-cu ildönümünə təsadüf edəcəyini bildirib. Vurğulayıb ki, zirvə görüşünün yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan hökuməti bütün səylərini göstərəcəkdir. "İnanıram ki, qardaş ölkələrimiz arasındakı bağlar gələcəkdə bu təşkilat çərçivəsində daha da möhkəmlənəcək, xalqlarımızın taleyi və mənafeyi naminə əhəmiyyətli addımlar atılacaq", - deyə Baş nazir Novruz Məmmədov söyləyib.

Müsahibədə Xəzərin hüquqi statusu ilə bağlı Xəzəryanı dövlət başçılarının imzaladıqları konvensiyadan, Beynəlxalq Türk Akademiyası və digər təşkilatların fəaliyyətindən, iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın prioritet istiqamətlərindən geniş bəhs edilib.

***AZƏRTAC***

# Şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında KİV-də yayılan materialların araşdırılması ilə bağlı yaradılmış işçi qrupunun ilk iclası keçirilib

Şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında kütləvi informasiya vasitələrində yayılan materialların araşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, yaradılmış işçi qrupunun noyabrın 1-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yanında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə, səhiyyə naziri Oqtay Şirəliyev, mədəniyyət naziri Əbülfəs Qarayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudov, Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov və Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev iştirak ediblər.

İclasda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq işçi qrupuna Mikayıl Müşfiqin qalıqlarının aşkar edilməsi ilə bağlı KİV-də gedən məlumatların öyrənilməsi, müvafiq arxiv materiallarının araşdırılması, şairə məxsus olduğu ehtimal edilən qalıqların DNK analizinin keçirilməsi və digər zəruri tədbirlərin görülməsi ilə əlaqədar tapşırıqlar verilib.

İşçi qrupunun gördüyü işlər və əldə edilmiş nəticələr barədə mütəmadi olaraq Azərbaycan Prezidentinə məruzə olunacaq və ölkə ictimaiyyətinə məlumat veriləcək.

# Pakistan Azərbaycanı bütün məsələlərdə daim dəstəkləyir

Dünən Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova ölkəmizdə səfərdə olan Pakistanın Federal Ombudsmanı, Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Prezidenti Syed Tahir Şahbaz, eləcə də Asiya Ombudsmanlar Assosiasiyasının icraçı katibi Abdul Xaliqlə görüşdü.

Görüşdə qonaqlara VI Beynəlxalq Humanitar Forumla bağlı məlumat verən Bahar Muradova dinamik inkişaf tempinə malik olan Azərbaycanın son zamanlar bir çox əhəmiyyətli beynəlxalq tədbirlərə evsahibliyi etdiyini vurğuladı.

Bahar Muradova ölkəmizdə Ombudsman institutunun yarandığı ildən bu günə qədər fəaliyyətini dəyərləndirərək Bakıda Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Direktorlar Şurasının 21-ci iclasının keçirilməsinə də toxundu. Qeyd edildi ki, hər bir ölkədə iqtisadi, sosial inkişafa nail olmaqla yanaşı, insan hüquqlarının qorunması bu inkişafdan necə yararlana biləcəyi gündəmə gətirilməlidir. Keçirilən iclas isə ölkələr arasındakı əlaqələrə öz töhfəsini verir.

Pakistan və Azərbaycan arasında uzun tarixə söykənən əlaqələrin mövcud olduğunu xatırladan Bahar Muradova söylədi ki, bu səfər dövlətlərarası əlaqələrin inkişafına da öz töhfəsini verəcək.

Görüşdə həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Qeyd edildi ki, Pakistan həmişə bu məsələdə Azərbaycana öz dəstəyini göstərib. Azərbaycan da öz növbəsində Kəşmir məsələsində Pakistana dəstək olur. Bahar Muradova Azərbaycan tərəfindən Pakistana ədalətli mövqeyinə görə təşəkkürünü çatdırdı.

Görüşdə AOA-nın prezidenti, Pakistanın Ombudsmanı Syed Tahir Şahbaz ölkələrimiz arasında yaxşı inkişaf edən mədəni, diplomatik əlaqələrin olduğunu söylədi. Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğu bir daha xatırladıldı. Qonaq bildirdi ki, Pakistan bütün məsələlərdə, xüsusilə də Dağlıq Qarabağ məsələsində həmişə Azərbaycana dəstək verir. Pakistan da Kəşmir məsələsində həmişə Azərbaycanın dəstəyinə ehtiyac duyur.

Asiya Ombudsmanlar Assosiasiyasının icraçı katibi Abdul Xaliq isə hazırda inkişaf etməkdə olan ölkələrdə bəzən insan hüquqlarının pozulduğunu diqqətə çatdırdı. Bildirildi ki, ölkələrdə məhz buna görə insan hüquqlarının təmin edilməsi məqsədi ilə ombudsman institutları yaradılıb. Bu da yaxşı idarəçiliyə, bu isə öz növbəsində dayanıqlı inkişaf məqsədlərinə nail olmağa gətirib çıxarır. İcraçı katib Azərbaycanın ombudsmanı Elmira Süleymanovanın fəaliyyətinin bütün ölkələrdə yüksək qiymətləndirildiyini də qeyd etdi.

Görüşdə iştirak edən ombudsman Elmira Süleymanova öncə Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Direktorlar Şurasının 21-ci iclası barədə qısa məlumat verdi. Bildirildi ki, iclasın yekununda ombudsmanlar arasında gələcəkdə də qarşılıqlı məsləhətləşmələrin aparılması və əməkdaşlığın gücləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsinə dair ümumi razılığa gəlinib. Elmira Süleymanova assosiasiya üzvləri tərəfindən irəli sürülən təkliflər əsasında gələcək əməkdaşlığa dair hazırlanacaq iş planının Bakı prinsipləri üzərində qurulacağına ümidvarlığını ifadə etdi. Qeyd edildi ki, qəbul edilən Bakı prinsipləri 90 ölkənin rəyini, əqidəsini ifadə edir.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin adından Süleyman Dəmirəlin məzarı önünə əklil qoyulub







Türkiyənin 9-cu Prezidenti, görkəmli siyasi və dövlət xadimi Süleyman Dəmirəlin anadan olmasının 94-cü ildönümü münasibətilə İsparta şəhərinin İslamköy kəndində anma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Süleyman Dəmirəlin prezidentliyi dövründə nazir, millət vəkili və digər siyasi vəzifələrdə təmsil olunan şəxslər, həmçinin onun yaxınları və sevənləri iştirak ediblər.

Mərasim Türkiyənin dövlət himninin səsləndirilməsi ilə başlanıb. Sonra Süleyman Dəmirəlin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Görkəmli dövlət xadiminin məzarı ehtiramla ziyarət olunub.

Abidə-məzar kompleksinin önünə Azərbaycan Prezidenti İlham Əliyevin adından əklil qoyulub.

Tədbirdə Süleyman Dəmirəlin 20 il şəxsi həkimi olan, hazırda Türkiyə Böyük Millət Məclisinin üzvü Aylin Cəsur, Azərbaycanın Ankaradakı səfiri Xəzər İbrahim və başqaları çıxış ediblər.

Səfir Xəzər İbrahim Süleyman Dəmirəlin yaxınlarına Azərbaycan Prezidenti İlham Əliyevin adından başsağlığı verib, mərhum dövlət xadiminin Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı üçün göstərdiyi xidmətlərdən, o cümlədən ulu öndər Heydər Əliyevlə olan səmimi dostluq münasibətlərindən danışıb. Səfir diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında Süleyman Dəmirəlin hər zaman Azərbaycanın yaxın dostu olduğunu və onun xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını ifadə edib.

Digər natiqlər də Süleyman Dəmirəl haqqında dəyərli fikirlər söyləyib, onunla bağlı xatirələrini bölüşüblər.

Sonra iştirakçılar İslamköydəki Süleyman Dəmirəl muzeyində olublar.

Qeyd edək ki, bu muzeydə Süleyman Dəmirəlin ulu öndər Heydər Əliyevlə birgə fotolarından, Azərbaycanla bağlı ona verilmiş müxtəlif hədiyyələr və mükafatlardan ibarət guşə yaradılıb.

# Azərbaycan ilə Bolqarıstan arasında nəqliyyat və energetika sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub

Bolqarıstana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov bu ölkənin nəqliyyat, informasiya texnologiyaları və kommunikasiyaları naziri Rossen Jeliazkov, həmçinin energetika naziri Temenujka Petkova ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə tərəflər Azərbaycan ilə Bolqarıstan arasında nəqliyyat və energetika sahələrində mövcud olan faydalı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarından bəhs edib və hər iki sahənin ikitərəfli münasibətlərin mühüm komponenti olduğunu təsdiq ediblər.

Azərbaycanın təşəbbüskarı olduğu və həyata keçirdiyi "Cənub qaz dəhlizi" çərçivəsində Azərbaycan qazının Avropaya nəqli və bu xüsusda Yunanıstan-Bolqarıstan qaz bağlantısı vasitəsilə Bolqarıstanın təbii qazla təmin olunmasının əhəmiyyəti vurğulanıb. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bolqarıstanın qazlaşdırılması prosesində iştirakı məsələsinin gündəmdə olduğu qeyd olunub.

Habelə əlverişli coğrafi yerləşməyə malik olan Azərbaycan və Bolqarıstanın Avropa və Asiya arasında beynəlxalq yük daşımalarının təşviqi baxımından mühüm rol oynadığı nazirlər tərəfindən qeyd edilib və tərəflər arasında nəqliyyat sahəsində əməkdaşlığın gücləndirilməsi üçün böyük potensialın olduğu xüsusilə vurğulanıb.

# Sofiyada Azərbaycan-Bolqarıstan Strateji Dialoqunun ilk iclası keçirilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bolqarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin baş nazirinin müavini və xarici işlər naziri Yekaterina Zaxaryeva ilə görüşüb, həmçinin Azərbaycan-Bolqarıstan Strateji Dialoqunun ilk iclası keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlıq səviyyəsində olan ikitərəfli əməkdaşlıq münasibətlərinin beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət prinsipinə, eləcə də qarşılıqlı etimad və anlaşmaya əsaslandığını vurğulayıblar.

Nazirlər iki ölkə arasında mövcud olan əməkdaşlığın cari vəziyyətini yüksək qiymətləndiriblər, eyni zamanda, energetika, nəqliyyat, kənd təsərrüfatı, turizm, İKT və ətraf mühit kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı maraq və geniş imkanların mövcud olduğunu ifadə ediblər.

Elmar Məmmədyarov Bolqarıstandan olan həmkarını bu il dekabrın 14-də Bakıda keçiriləcək Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclasına dəvət edib. İkitərəfli görüşdən sonra hər iki ölkənin nümayəndə heyətləri arasında Azərbaycan və Bolqarıstan Strateji Dialoqunun ilk iclası keçirilib.

İclasda ikitərəfli əməkdaşlıq gündəliyinin bir çox məsələni, o cümlədən ikitərəfli iqtisadi-ticarət münasibətləri, energetika, nəqliyyat, tranzit layihələrin həyata keçirilməsi, Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətləri və bu xüsusda münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni saziş üzrə danışıqların cari vəziyyəti, Azərbaycan və Bolqarıstanın beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ən islahatçı PREZİDENT, ən islahatçı dövlət

## Azərbaycan "Doing Business 2019" hesabatında 190 ölkə arasında 25-ci yerə yüksəlib

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Bütün bunlar da son hesabatda öz əksini tapıb. Bildirilir ki, ölkəmiz "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, "Kiçik investorların maraqlarının qorunması" indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, "Biznesə başlama" (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub.

Bütövlükdə "Doing Business 2019" hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib.

### Sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu dövlət

Xatırladaq ki, oktyabr ayının əvvəlində Dünya İqtisadi Forumu da Azərbaycanın liderliyini növbəti dəfə elan etmişdi. Təşkilatın tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim etdiyi Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın müxtəlif indikatorlar üzrə yüksək nəticələr əldə etdiyi vurğulanırdı.

Qlobal trendlər nəzərə alınmaqla, hesabatın metodologiyasında dəyişikliklər o qədər dərin və əhatəli olub ki, Dünya İqtisadi Forumu bu metodologiyanı yeni nəsil "4.0" kimi təqdim edib. Bu isə onu deməyə əsas verir ki, "Qlobal Rəqabətlilik Hesabatı-2018/2019" yeni dövrün ilk hesabatıdır. Belə ki, əvvəlki illərdən fərqli olaraq hesabatın metodologiyası ciddi şəkildə dəyişdirilərək yeni indikatorlar daxil edilib. Ümumilikdə əvvəlki hesabatın 114 indikatorundan 84-ü (74 faizi) çıxarılıb, 68 yeni indikator isə daxil edilib. Beləliklə, hesabatda mövcud 98 indikatorun 70 faizi tamamilə yenidir.

Azərbaycan Qlobal Rəqabətlilik Hesabatının yeni metodologiyası əsasında ilk dəfə qiymətləndirilib. Hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Azərbaycan hesabatda dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanıb. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlib.

### "Biznesin dinamikliyi" - 140 ölkə arasında 31-ci

Hesabata əsasən, Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşıb. Eləcə də bir çox göstəricilər üzrə Azərbaycan dünya ölkələri arasında qabaqcıl yerlərə sahib olub.

Belə ki, ölkəmiz tənzimləmələrdə qanunların effektivliyi göstəricisi üzrə 22-ci, dövlət tənzimləmələrinin iqtisadiyyata yüklülüyünün azlığına görə 12-ci, hökumətin gələcəyə yönəlik fəaliyyətinə görə 20-ci, dəmir yolu xidmətlərinin səviyyəsinə görə 17-ci, dəniz limanlarının xidmət səviyyəsinə görə 29-cu, internet istifadəçilərinin sayına görə 36-cı, əhali arasında rəqəmsal vərdişlərə görə 15-ci, sahibkarlıq riskinin azlığına görə 21-ci yerdə qərarlaşıb.

Bir sözlə, Azərbaycanda aparılan iqtisadi islahatların gələcəyə yönəlik çağırışları nəzərə alması və ölkə iqtisadiyyatının dayanlıqlı olaraq gələcək dövrün çağırışlarına cavab vermək üçün hazırlanması Dünya İqtisadi Forumunun hesabatında bir daha öz əksini tapıb.

### Azərbaycan liderliyini qoruyacaq

Bu gün Azərbaycanda düşünülmüş sosial-iqtisadi siyasət aparılır. Əlbəttə, bu, bir həqiqətdir ki, dövlətin qarşıya qoyduğu bütün planların həyata keçirilməsi üçün iqtisadiyyat uğurla inkişaf etməli və bu istiqamətdə ardıcıl addımlar atılmalıdır.

İlham Əliyevin söylədiyi kimi, əgər bu gün Azərbaycanın güclü iqtisadi imkanları olmasaydı, sosial-iqtisadi layihələrin heç birini reallaşdırmaq mümkün olmazdı. Lakin ölkəmizdə heç bir sosial layihə indiyədək təxirə salınmayıb. Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən, beynəlxalq təşkilatdan asılı deyil. Bu da ölkənin tarixi nailiyyətidir.

Həyata keçirilən uğurlu iqtisadi islahatlar, reallaşan sosial-iqtisadi layihələr onu deməyə əsas verir ki, növbəti illərdə açıqlanacaq beynəlxalq hesabatlarda ölkəmizin mövqeyi daha da yaxşılaşacaq, Azərbaycan liderliyini qoruyub saxlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Seçki sisteminin təkmilləşdirilməsi istiqamətində Azərbaycan mühüm nailiyyətlər əldə edib

Qazaxıstanın paytaxtı Astanada "Seçkilərdə müasir texnologiyaların rolu: standartların təkmilləşdirilməsi, ictimai etimad" mövzusunda beynəlxalq konfrans və sərgi keçirilir.

AZƏRTAC xəbər verir ki, Qazaxıstanın Mərkəzi Seçki Komissiyasının yaradılmasının 25 illiyinə həsr edilən konfransda Azərbaycanı Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.



Beynəlxalq konfransda bildirilib ki, Qazaxıstan Azərbaycanın seçki prosesində müasir texnologiyaların tətbiq olunması təcrübəsindən istifadə edir. Demokratiyanın əsas göstəricilərindən biri olan seçki sisteminin təkmilləşdirilməsi istiqamətində Azərbaycan mühüm nailiyyətlər əldə edib.

Qazaxıstan, Rusiya, Latviya, Litva, Türkiyə, Tacikistan, Gürcüstan, Özbəkistan, Qırğızıstan, Hindistan və digər ölkələrin mərkəzi seçki komissiyalarının rəhbərlərinin qatıldıqları tədbirdə Məzahir Pənahov "Seçkilərdə müasir texnologiyadan istifadə: Azərbaycan təcrübəsi" mövzusunda çıxış edib. Sədr bildirib ki, Azərbaycan bu sahədə çox ciddi islahatlar apararaq əhəmiyyətli nəticələr əldə edib. Belə ki, islahatlar zamanı inkişaf etmiş demokratik ölkələrin təcrübəsi öyrənilib, bununla bağlı ölkəmizdə hüquqi çərçivə yaradılıb, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənib, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə imkanları artırılıb.

MSK sədri konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycanın seçki sisteminin təkmilləşdirilməsində əsas islahatlar 2000-ci ildə başlanılıb. Bu, ölkədə Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin yaradılmasına səbəb olub. Bu islahatlar seçkilərin şəffaflığı və aşkarlığının təmin edilməsinə, seçki subyektlərinin hüquqlarının qorunmasına, müxtəlif seçki subyektləri və aşağı seçki komissiyalarının sistemli fəaliyyətinin həyata keçirilməsinə, seçki kampaniyalarında namizədlər üçün bərabər şərait yaradılmasına gətirib çıxarıb.

Konfrans iştirakçılarına "Azərbaycan Respublikasının inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları üzrə milli strategiya" adlı Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı ölkədə məlumatlı cəmiyyət qurmaq üçün müvafiq hüquqi çərçivə yaradılmasından bəhs edilib. Bildirilib ki, tətbiq edilən dövlət proqramları və islahatlar nəticəsində Azərbaycanda elektron hökumət qurulub, internet resursları genişlənib, informasiya təhlükəsizliyi problemlərinin həlli üçün bir sıra digər vacib addımlar atılıb. Bütün bunlar isə ölkədə seçki proseslərində elektron vasitələrdən istifadənin genişləndirilməsinə təkan verib.

Tədbirdə digər çıxış edənlər də ölkələrinin seçki təcrübələri ilə bağlı məruzələrində seçki prosesinin təkmilləşdirilməsində elektron xidmətlərin əhəmiyyətini xüsusi qeyd ediblər.

Konfransda Dünya Seçki Təşkilatları, Avropa Seçki Təşkilatçıları və Asiya Seçki Qurumları assosiasiyalarının nümayəndələri və üzvləri, 14 xarici ölkənin seçki idarəetmə orqanlarının rəhbərləri iştirak edirlər.

Noyabrın 2-də tədbirin yekununda Azərbaycanın və Qazaxıstanın Mərkəzi Seçki komissiyaları arasında anlaşma memorandumu imzalanacaq.

# Dünya Bankı da Azərbaycanın MDB-də liderliyini təsdiqlədi

## Yeni hesabata əsasən ölkəmiz 32 pillə irəliləyərək ən çox islahat aparan dövlət statusuna sahiblənib

*Əvvəli 1-ci səh.*

Elə iqtisadi ekspertlər, deputatlar da bu hesabatı şərh edərkən ölkəmizin bugünkü uğurunun Prezident İlham Əliyevin məqsədyönlü və düşünülmüş siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirirlər.

### Göstəricilərini yaxşılaşdıran dünyanın 10 ölkəsindən biri

İqtisadiyyatın sağlam özəl sektor olmadan inkişaf edə bilməyəcəyini söyləyən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişilinin fikrincə, özəl sektor inkişaf etdikcə yeni iş yerləri açılır, ölkə daxilində xərclənən və investisiya qoyula biləcək gəlir formalaşır.

Onun sözlərinə görə, iqtisadi cəhətdən inkişafa diqqət yetirən hər bir ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına təsir edə biləcək qanunların qəbul olunmasına, tənzimləmələrin tətbiqinə xüsusi diqqət yetirilir. Səmərəli biznes tənzimləmələri mikro və kiçik sahibkarlara böyümək, innovativ fəaliyyət göstərmək, qeyri-qanuni fəaliyyətdən qanuni fəaliyyətə keçmək üçün imkan və stimul yaradır.

Deputat vurğulayıb ki, Dünya Bankının dərc etdiyi "Doing Business 2019" hesabatı 190 ölkədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı olan qanunverici aktların və onların tətbiq olunmasını obyektiv olaraq qiymətləndiməyə imkan verir: "Hesabat 11 indikator üzrə ölkələri təhlil etsə də, reytinq cədvəlində 10 indikatorun (əmək bazarının tənzimlənməsi indikatoru istisna olmaqla) göstəricilərindən istifadə olunur. "Doing Business 2018" hesabatında 57-ci yerdə qərarlaşan Azərbaycan "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşıb. Qeyd etmək lazımdır ki, Azərbaycan hesabat indikatorları üzrə göstəricilərini ən çox yaxşılaşdıran dünyanın 10 ölkəsindən biri olub. Bu TOP 10 ölkələr əsasən biznesə başlama, kredit əldə etmək və vergi ödəmək sahələrində 62 islahat həyata keçirib. Bundan əlavə, Azərbaycan hesabatın 10 indikatorundan 8-də islahatlar həyata keçirərək öz mövqeyini yaxşılaşdırıb və islahatların sayına görə dünyada 1-ci olub".

Bakı İcra Hakimiyyətində tikintiyə icazələrin "bir pəncərə" prinsipi ilə verilməsi, elektrik şəbəkəsinə qoşulmaları azaldan "ASAN Kommunal" mərkəzlərinin açılması, yeni kredit bürosunun yaradılması kimi tədbirlərə toxunan Tahir Mirkişili qeyd edib ki, bütün bunlar ölkəmizin hesabatda mövqeyini xeyli yaxşılaşdırıb: "Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi və institutsional islahatlar ölkəmizdə sahibkarlıq mühitini getdikcə daha əlverişli etməkdədir. Dünya Bankının apardığı təhlillərin nəticələri bunu bir daha göstərir. İslahatların dərinləşməsi və əhatəliliyinin artması ölkəmizdə biznes mühitini daha da inkişaf etdirməklə əhalinin rifah halının yaxşılaşmasına imkan yaradacaq".

### Azərbaycan dünyada ən çox islahat aparan ölkə sırasını qoruyub saxlayıb

İqtisadçı ekspert Vüqar Bayramov da Azərbaycanın "Doing Business 2019" hesabatında əldə etdiyi göstəricini yüksək qiymətləndirir.

Hesabatda Qazaxıstanın 28-ci, Rusiyanın 31-ci, Belarusun 37-ci, Ermənistanın 41-ci, Moldovanın 47-ci, Qırğızıstanın 70-ci, Ukraynanın 71-ci, Özbəkistanın 76-cı, qonşu Türkiyənin isə 43-cü yerdə qərarlaşdığını sadalayan Vüqar Bayramov ölkəmizin MDB dövlətləri ilə müqayisədə ən yaxşı göstəriciyə malik olduğunu qeyd edib.

Ekspert əlavə edib ki, Azərbaycan 2017-2018-ci illərdə ən çox islahat aparmış on ölkədən biridir və həmin dövrdə islahatların sayına görə dünyada birinci yerdədir. Sözügedən dövrdə Azərbaycanda 8, hesabatda ikinci yerdə gələn Türkiyədə isə 7 islahat aparılıb. Bununla da Azərbaycan dünyada ən çox islahat aparan ölkə sırasını qoruyub saxlayıb.

Vüqar Bayramovun fikrincə, Bakı Şəhər İcra Hakimiyyətində inşaat üçün icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi və "bir pəncərə" sisteminin tətbiqi Azərbaycanın mövqeyinin güclənməsini şərtləndirən amil sayılır: "Praktik olaraq "bir pəncərə" sisteminin tətbiq edilməsi qısa zamanda icazələrin əldə edilməsinə imkan verir ki, bu da lisenziyaların sayının 80 gün, icazə üçün tələb olunan məbləğin isə 12 min 563 manat və ya təxminən 7 min 500 dollar azalmasına gətirib çıxarıb".

Digər islahatın "ASAN xidmət" vasitəsilə elektrik enerjisinə çıxış imkanlarının artırılması ilə bağlı olduğunu deyən Vüqar Bayramov vurğulayıb ki, bu da öz növbəsində Azərbaycanın mövqeyinin möhkəmlənməsinə təsir göstərən amillərdən biridir.

İqtisadçının sözlərinə görə, ölkəmizdə daşınmaz əmlakın qeydiyyatı prosesinin asanlaşdırılması, şəffaflığın gücləndirilməsi, kreditə çıxış imkanlarının gücləndirilməsi, xüsusən kredit bürolarının yaradılması, müflisləşmə ilə bağlı prosedurların sadələşdirilməsi və əmək bazarında yeni qaydalar birbaşa Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına təsir göstərən amillərdir. Bundan başqa, investorların hüquqlarının qorunması ilə bağlı qaydaların təkmilləşdirilməsi, kiçik paya malik olan səhmdarların hüquqlarının qorunması mexanizminin işlənməsi də aparılan islahatlardandır. Həmçinin Azərbaycanın xarici ticarət əməliyyatlarında "Yaşıl dəhliz"in tətbiqi mövqeyimizin möhkəmlənməsinə təsir edir.

Vüqar Bayramov əlavə edib ki, Azərbaycan adı çəkilən hesabatda biznesə başlamağa görə dünyada 9-cu, daşınmaz əmlakın qeydiyyatına görə 17-ci, kreditdə əlçatanlığın təmin edilməsinə görə 22-cidir: "Bu, kifayət qədər ciddi rəqəmdir. Xüsusən, leqal hüquqların qorunması sahəsində ölkəmizin mövqeyinin güclənməsi diqqət çəkən məqamlardandır. Az səhmə malik olan investorların hüquqlarının qorunmasına görə ölkəmiz 2-cidir. Bu göstərici üzrə Azərbaycanın balı 100 ballıq sistemdə 81,67 bal kimi göstərilir. Vergi ödənişlərinə görə 28-ci yerdədir".

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# "24/7 kitabxana" fəaliyyətə başlayıb

Noyabrın 1-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "24/7 kitabxana"nın açılış mərasimi olub. Mərasimdə təhsil naziri Ceyhun Bayramov, UNEC-in rektoru Ədalət Muradov iştirak ediblər. AZƏRTAC xəbər verir ki, ölkədə ilk dəfə olaraq 7 gün, 24 saat fəaliyyət göstərəcək kitabxana müvafiq standartlara uyğun işıqlandırma və havalandırma sistemi, müasir proqram təminatı, yüksək sürətli fiber-optik internet xətti və ən yeni parametrlərə sahib kompüterlərlə təchiz edilib. Üçmərtəbəli kitabxana binasının II və III mərtəbələrində ixtisaslaşmış və geniş fonda malik, açıq rəf sistemi ilə tərtib olunmuş oxu zalları fəaliyyət göstərir. Burada məşhur kitabxanaların elektron resurslarına, o cümlədən "Oxford University", "Cambridge University", "The MIT", "Duke University", ECONBIZ, JSTOR, "Duke University Press" və EBSCO bazalarına daxil olmaq mümkündür. Tələbələr M.F.Axundzadə adına Milli Kitabxananın 60 min kitab, 140 min qəzet və jurnal, 15 min dissertasiyadan ibarət elektron bazasından da istifadə edə biləcəklər. İstifadəçilərin həmçinin "Web of Science" platformasının 126 min 626 məqalədən ibarət bazasına çıxış imkanları var. Eyni anda 104 tələbəyə xidmət göstərmək imkanına malik kitabxana ümumilikdə 760 mindən artıq elektron resursa çıxışı təmin edəcək.



Sonra daha bir innovativ layihə - ən müasir texnoloji avadanlıqlarla təchiz edilən "UNEC Extern" mərkəzi ilə tanışlıq olub. Bildirilib ki, dünyanın aparıcı universitetlərinin təcrübəsi əsasında hazırlanan mərkəzin üstünlükləri sırasına onlayn dərsə istənilən yerdən qoşulmaq, tələbələrin mövzunu daha dərindən mənimsəmək üçün müəllimə sual vermək, müzakirələrdə iştirak etmək, dərslərin videobazasına istənilən vaxt və istənilən yerdən yenidən baxmaq imkanları daxildir.

Qeyd olunub ki, "UNEC Extern"də seçilmiş yerli və əcnəbi professor-müəllimlərdən ibarət heyət tədris aparacaq. Mərkəzdə 6 tədris studiyası, 12 inzibati və 1 müzakirə otağı var. Studiyalarda elektron kürsü, xüsusi sensor lövhə, monitor, HD kamera və səs avadanlıqları quraşdırılıb. Bir tədris studiyasında eyni anda 500, gün ərzində isə 9-12 min tələbəyə təhsil vermək mümkündür.

# *Səməd SEYİDOV:* "Ermənistanın destruktiv siyasəti tamamilə iflasa uğrayıb"

"Son zamanlar Ermənistan rəhbərliyi beynəlxalq səviyyədə əlaqələrini hansısa formada inkişaf etdirməyə çalışır. Ancaq biz bunun tam əksinin şahidi oluruq. Görürük ki, Ermənistanın siyasəti tam iflasa uğrayır. Nə qədər çox çabalayırsa, özünü bir o qədər də bataqlığın içərisinə salır".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib.

Səməd Seyidov bildirib ki, oktyabrın son günlərində baş verən proseslər, keçirilən görüşlər Ermənistanın siyasətinin nə dərəcədə iflasa uğramasının başlıca göstəriciləridir. İstanbulda oktyabrın 29-da Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin, oktyabrın 30-da isə Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin üçtərəfli görüşlərini xüsusi qeyd etmək lazımdır. Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin imzaladıqları İstanbul Bəyannaməsində xüsusi bir bənd var. Həmin bənddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında, o cümlədən BMT, ATƏT və Avropa Şurasının müvafiq qətnamələri çərçivəsində həll olunmasının zəruriliyi bildirilir. Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin üçtərəfli görüşünün nəticəsi olaraq imzalanmış bəyannamədə də beynəlxalq hüququn prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və dəstək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bu prinsiplər əsasında həllinə dair qəti və prinsipial mövqe öz əksini tapıb. Bu bəyannamələr, region dövlətləri, xüsusilə də İran tərəfindən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə açıq-aşkar dəstəyin ifadə olunması çox önəmlidir. Münaqişənin məhz bu prinsiplər əsasında həllinə çağırış edilməsi bir daha onu göstərir ki, Ermənistanın regionda destruktiv siyasəti tamamilə iflasa uğrayıb.

"Məsələyə yanaşma yalnız region ölkələrini əhatə etmir. Mən oktyabr ayının sonlarında keçirilən yüksək səviyyəli görüşlərdən danışarkən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun regiona səfərini qeyd etmək istəyirəm. O, səfər zamanı Azərbaycanın mövqeyi ilə üst-üstə düşən fikirlərini açıqladı. Biz o mövqeyi dünyaya çatdırırıq ki, Ermənistan hansısa inkişafa nail olmaq istəyirsə, qonşu dövlətlərlə normal münasibətlər qurmağa can atmalıdır və bunu etməlidir. Ermənistanın başqa çıxış yolu yoxdur. Faktiki olaraq, həmin fikir Con Boltonun bəyanatında da öz əksini tapdı. Bundan əvvəl isə ABŞ-ın Ermənistandakı səfiri Riçard Mills Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün Ermənistanın qonşuları ilə münasibətlərini yüksək səviyyədə qurmaq, xüsusilə də Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunlarını çıxarmaq məsələsini gündəmə gətirmişdi. Beləliklə, həm İstanbulda region dövlətlərinin xarici işlər nazirlərinin bəyanatları, həm ABŞ-dan gələn bəyanatlar, həm də beynəlxalq səviyyədə qəbul olunmuş sənədlər ona dəlalət edir ki, Azərbaycanın ərazi bütövlüyü müzakirə obyekti deyil və Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Ermənistanın mövqeyi nöqteyi-nəzərindən müzakirə olunmayacaq. Ermənistanın konstruktivlikdən kənar təklifləri danışıqlar prosesinə təsir edə bilməyəcək" - deyə Səməd Seyidov qeyd edib.

Milli Məclisin komitə sədri bildirib ki, Ermənistanın bugünkü vəziyyəti heç bir dövlət tərəfindən ciddi qəbul olunmur. Hətta Ermənistanda gedən proseslər Rusiya tərəfindən də inamsızlıqla, böyük şübhə ilə qarşılanır. Biz bunu son zamanlar Rusiyadan eşitdiyimiz bəyanatlardan da görürük. Həm Rusiya, həm ABŞ, həm İran, bütövlükdə Avropa İttifaqı getdikcə Paşinyan rejiminə inanmır. Onlar artıq münasibətlərini konkret addımlarla göstərirlər. Misal üçün, ötən il Ermənistanda keçirilmiş parlament seçkiləri ilə əlaqədar Avropa İttifaqı tərəfindən bu ölkəyə 7 milyon avroya qədər vəsait ayrılmışdı. İndi isə Paşinyanın xahişlərinə, xüsusi göndərilmiş şəxslərin yalvarışlarına baxmayaraq, Avropa İttifaqı parlament seçkilərinin təşkili ilə əlaqədar cəmi 3 milyon avro ayırdı. Bu da inamsızlığın bir nümunəsidir. Paşinyan Avropa İttifaqına gedəndə bəyan edirdi ki, Ermənistanda islahatların həyata keçirilməsi üçün ona bir milyard avro lazımdır və "yeni Ermənistan"ın qurulmasında Avropa İttifaqının köməyi çox vacibdir. Onun belə çağırışları, sadəcə olaraq, gülüş doğurur.

"Biz görürük ki, Azərbaycanın apardığı siyasət, ölkəmizin mövqeyi Avropa İttifaqı, ABŞ, Rusiya, İran və digər dünya dövlətləri tərəfindən dəstəklənir. Bu, çox vacib bir məsələdir. Ona görə də Ermənistanın indiki rəhbərliyi beynəlxalq və regional reallığı düzgün dərk edərək nəticə çıxarmalıdır. Ermənistanın iflası və özünütəcridi daha da dərinləşir. Ermənistan siyasi, iqtisadi, sosial, demoqrafik, diplomatik böhran içərisindədir. Hesab edirəm ki, bütün bunlar Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmasına, qonşu dövlətlərlə normal, beynəlxalq qanunlar çərçivəsində əlaqələr qurmasına məcbur edəcək" - deyə Səməd Seyidov bildirib.

# *İsveç XİN:* "Krallıq Ermənistana "Saab JAS 39 Grippen" qırıcılarını satın almağı təklif etməyib"

Son günlər bəzi xarici KİV-də Ermənistan Müdafiə Nazirliyinə istinadən İsveçin Saab şirkətinin istehsal etdiyi "JAS 39 Grippen" markalı qırıcıların guya Ermənistana satın almağa təklif olunması ilə bağlı xəbər yayılıb.

AZƏRTAC xəbər verir ki, yayılan xəbərlə bağlı Azərbaycanın İsveç Krallığındakı səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə müvafiq məsələyə aydınlıq gətirmək üçün sorğu ilə müraciət edib.

İsveç Xarici İşlər Nazirliyinin cavab məktubunda bildirilib ki, yayılan xəbərlər həqiqətə uyğun deyil. Qeyd olunur ki, İsveç hökuməti Ermənistana "Saab JAS 39 Grippen" markalı qırıcıların satın alınmasını təklif etməyib, habelə bu səpkidə işlər aparmayıb.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

2003–2018

## Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi






# Çağdaş dünya, çağdaş insan

*Əvvəli 1-ci səh.*

Ziyalı, əxlaqlı, ədalətli insan öz varlığı ilə dünyada kiçik bir mənəviyyat çırağı yandırır. Sağlam düşüncəli, mütərəqqi təfəkkürlü kəs çevrəsində də sağlam düşüncə mühiti yaradır. Ümumən dünyamızın tərəqqisinə töhfə verir. Bir sözlə, əgər dünyanı inkişaf etdirmək istəyirsənsə, ən birinci insanın inkişafından başlamalısan.

25 oktyabr 2018-ci il tarixində Heydər Əliyev Mərkəzində keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu da mövzu etibarilə məhz bu ideyaya xidmət edir: "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı".

Son illər evsahibliyi etdiyi beynəlxalq tədbirlərlə, irəli sürülən qlobal təşəbbüslərlə, həyata keçirilən dövlət siyasətinin uğurları ilə mədəniyyətlərarası dialoq məkanına, multikulturalizm, tolerantlıq örnəyinə çevrilmiş Azərbaycan bu dəfə dünyanın tanınmış fikir adamlarını, görkəmli elm, mədəniyyət, siyasət xadimlərini belə bir mövzu ətrafında bir araya gətirdi. Bəşəriyyətə ünvanlanmış qlobal çağırışlara forumda adekvat cavablar axtarıldı.

Ümumiyyətlə, Bakı Beynəlxalq Humanitar Forumu dövlətlər arasında humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi ən geniş və nüfuzlu bir platformadır. 2010-cu ildən keçirilən forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir.

Bakı Beynəlxalq Humanitar Forumunda qlobal xarakterli məsələlərə dair geniş dialoqlar, fikir mübadilələri, müzakirələr aparılır. Gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalara və onların həyata keçirilməsi yollarının axtarılmasına diqqət yönəldilir. Aparılan müzakirələr zamanı əldə edilmiş ortaq qənaətlərə istinadən bəşəriyyətə, dövlətlərə müxtəlif tövsiyələr ünvanlanır. İndikindən daha gözəl, daha təhlükəsiz və inkişaf etmiş dünyanın qurulmasından ötrü yerinə yetirilməli olan vəzifələr müəyyənləşdirilir.

Belə mühüm bir tədbirin məhz Azərbaycanda keçirilməsi ulu öndər Heydər Əliyevin milli dövlətçilik kursunu əzmlə davam etdirərək ölkəmizə böyük uğurlar qazandırmış Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində əldə etdiyimiz tarixi nailiyyətlərdəndir.

### "Bakı prosesi"nin uğurları

Bakı Beynəlxalq Humanitar Forumuna hər il böyük sayda nüfuzlu şəxslərin, Nobel mükafatı laureatı olan alimlərin, dünyanın mədəni, iqtisadi, siyasi elitası nümayəndələrinin qatılması tədbirə olan beynəlxalq marağın ildən-ilə artdığını göstərir. VI Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini də elə iştirakçı sayından duymaq olur. Dünyanın 80-dən çox ölkəsindən gəlmiş nümayəndələrin tərkibi dünya miqyasında ölkəmizə olan yüksək diqqət və hörmətin göstəricisidir.

Forumun açılışı mərasimindəki nitqi zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir dünyamızda nəzərə çarpan aktual problemlərin həlli məqsədilə ölkəmizin irəli sürdüyü silsiləvi beynəlxalq təşəbbüsləri diqqətə çatdırdı. BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, dünya dinləri liderlərinin Bakıda keçirilmiş Zirvə görüşü haqqında danışdı. Ölkəmizdə dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumunun və altı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsini Azərbaycanın beynəlxalq humanitar əməkdaşlıq məsələlərindəki mühüm roluna nümunə göstərdi.

Bütün bunlar 2008-ci ildən start götürərək ötən on il ərzində parlaq nəticələrlə müşayiət olunan "Bakı prosesi"nin uğurlarıdır. "Bakı prosesi" Azərbaycan Respublikasının təşəbbüsü ilə hələ 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüşdü. Ölkəmizin belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsi zəngin milli ənənələrə söykənir. Azərbaycan ərazisində tarixən tolerantlıq mühiti mövcud olub. Müxtəlif etnik qruplara, fərqli mədəniyyətlərə, dinlərə, dillərə mənsub insanlar yüzillərlə burada əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət ruhunda yaşayaraq bu torpaqlara birgə fayda veriblər. Mədəni müxtəliflik Azərbaycan tarixinə böyük zənginliklər bəxş edib.

Çıxışı zamanı bu məqama Prezident İlham Əliyev də toxundu: "Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır". Elə "Bakı prosesi" də möhkəm təməllərə, tarixi ənənələrə əsaslandığına görə qısa zamanda belə uğurlar qazana bildi.

2008-ci ilin 2-3 dekabr tarixində Bakıda keçirilən Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam dövlətinin nazirləri dəvət edildi. İslam dövlətlərinin iştirakı ilə mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olundu. Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksəksəviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edildi.

Bu çərçivədə 2009-cu ilin oktyabrında Bakıda İslam ölkələri mədəniyyət nazirlərinin VI Konfransında Azərbaycanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurasına üzv dövlətlər arasında əməkdaşlığı gücləndirmək məqsədilə keçirilən görüşdə "Bakı prosesi - dialoq və mədəni müxtəlifliyə dəstək: Sivilizasiyalar arasında dialoq naminə yeni çağırışlar" adlı qətnamə qəbul olundu. 2010-cu ildənsə "Bakı prosesi" artıq regional təşəbbüsdən qlobal çağırışa çevrildi.

### Bugünə və gələcəyə töhfə

Ötən on il ərzində ölkəmizdə "Bakı prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirildi. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və onun strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazandı. Elə 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi də bu uğurlu prosesin və fəaliyyətin nəticəsi idi.

Ölkəmizdə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi də eyni məramın təzahürü, mədəniyyətlərin dialoquna, dünyanın bugününə və gələcəyinə dəyərli töhfədir. Azərbaycan bütün dünyaya nümayiş etdirir ki, dini-mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın respublikamızda və beynəlxalq müstəvidə reallaşdırdığı iri-miqyaslı humanitar layihələr, təlqin etdiyi ali dəyərlər dünyanın və insanlığın inkişafına yol açan bəşəri ideyaların çevrəsinin, sərhədlərinin genişlənməsinə xidmət edir.

Azərbaycan dövlətinin "Bakı prosesi" ilə bəşəriyyətin gələcəyi naminə çəkdiyi zəhmət beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Hətta Birləşmiş Millətlər Təşkilatı Baş katibinin 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasındakı "Dünyanın rifahı naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi" adlı məruzəsində 2008-ci ildən etibarən müvəffəqiyyətlə reallaşdırılan "Bakı prosesi"ni xüsusi vurğulaması sivilizasiyalar arasında qədim dövrlərdən bəri körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələrin beynəlxalq miqyasda etirafı kimi yadda qaldı.

Bu il isə "Bakı prosesi"nin başlanmasından 10 il ötür. Belə bir təntənəli ildönümünün qeyd edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 17 noyabr 2017-ci il tarixli sərəncam imzalayıb. 12 iyun 2018-ci ildə Parisdə Heydər Əliyev Fondu, ölkəmizin Fransadakı səfirliyi və UNESCO yanında Daimi Nümayəndəliyimizin təşkilatçılığı ilə "Bakı prosesi"nin 10 illik yubileyi qeyd olunub.

VI Bakı Beynəlxalq Humanitar Forumu da bu prosesin davamı olaraq ayrı-ayrı dövlətlərdən gələn, həyata baxışları müxtəlif olan insanların fikir mübadiləsi meydanı kimi çox faydalı nəticələrə vəsilə oldu.

### Bəşəriyyətə çağırışlar

İlk növbədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin forumdakı proqram xarakterli nitqi, səsləndirdiyi fikir və tezislər dünyada baş verən hadisələrin dərki baxımından çox aktual idi. Burada aparılan müzakirələr, irəli sürülən təkliflər yaxın gələcəkdə yeni dünyada insanın inkişafı ilə bağlı daha konkret nəticələrin əldə olunması baxımından çox aktualdır.

Forumun sonunda qəbul edilən bəyannamədə beynəlxalq münaqişələr, zorakı ekstremizm, terrorçuluq və bununla əlaqədar humanitar böhranlar, insanların məcburi yerdəyişmələri qətiyyətlə pisləndi. Bununla yanaşı, forum iştirakçıları mədəniyyətlərarası, konfessiyalararası və sivilizasiyalararası səmərəli dialoqa nail olmaq istiqamətində qazanılmış uğurlara baxmayaraq, dünyada hələ də ksenofobiya, irqi ayrı-seçkilik, dözümsüzlük və multikulturalizm siyasətinin nailiyyətlərinin və imkanlarının nəzərə alınmaması hallarının olduğunu vurğuladılar. İnsanın inkişafından ötrü gender bərabərliyi prinsipinin qorunması, həssas vəziyyətdəki insanların hüquqlarının təmin olunması da əsas prioritetlər kimi bəyannamədə öz əksini tapdı. Forum iştirakçıları humanitar əməkdaşlığın daha da inkişafı baxımından media və informasiya texnologiyalarının böyük əhəmiyyət daşıdığını bir daha təsdiqlədilər.

Beləliklə, VI Bakı Beynəlxalq Humanitar Forumu bütün dünyaya çox əhəmiyyətli ismarıclar yetirdi. Nümayəndələr ilk növbədə Azərbaycanın inkişafı, tolerantlığı, bütün dinlərə, mədəniyyətlərə açıq, demokratik, ən əhəmiyyətlisi isə, forumun da mövzusuna uyğun - insan amilinə hörmətlə yanaşan ölkə olduğunu bir daha görərək bu ölkədə sözlə əməlin üst-üstə düşdüyünün şahidinə çevrildilər. Multikulturalizmin, tolerantlığın, mədəniyyətlərarası dialoqun Azərbaycan nümunəsi ilə yaxından tanışlıq imkanı qazandılar.

Forum Azərbaycan həqiqətlərinin bir daha dünyaya çatdırılması, torpaqlarımızın Ermənistan silahlı birləşmələri tərəfindən işğala məruz qalması nəticəsində üzləşdiyimiz humanitar fəlakətin beynəlxalq aləm tərəfindən dərki baxımından da önəmli idi. Azərbaycan Prezidenti forumun açılış mərasimindəki çıxışında dünyanın bütün aparıcı beynəlxalq təşkilatlarının, o cümlədən, BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qərar və qətnamələrini diqqətə çatdırdı. Kütləvi şəkildə qətlə yetirilmiş yüzlərlə Azərbaycan vətəndaşı şəxsində erməni cəlladlarının ümumən bəşəriyyət əleyhinə törətdikləri Xocalı soyqırımından danışdı. Bir daha bəyan etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır: "Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir".

Forumu əhəmiyyətli edən cəhətlərdən biri də o idi ki, nümayəndələr ölkəmizə qarşı ikili standartlara, indiyə qədər ayrı-ayrı beynəlxalq dairələr tərəfindən göstərilən qərəzli münasibətə şahid oldular. Yəni tədbir iştirakçıları yüz dəfə eşitməkdənsə, bir dəfə gördülər ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindəndir. Bu ölkədə sabitlik, əmin-amanlıq hökm sürür. Demokratik ənənələrə mühüm önəm verilir. Xalqla iqtidar arasında sarsılmaz vəhdət var. Bunu tədbirdə iştirak edən nümayəndələr öz çıxışlarında da vurğuladılar.

Dünyanın iri şirkət rəhbərlərinin də qatıldığı bu forumun iqtisadi faydası da çox böyükdür. Biznes üçün hər fürsəti dəyərləndirməyi bacaran iş adamları Azərbaycandakı geniş investisiya imkanlarını, əlverişli biznes mühitini müşahidə etdilər. Eyni zamanda, hər kəs gördü ki, bu gün Azərbaycan öz iqtisadi qüdrəti ilə artıq özü xaricə investisiya yatıran dövlətə çevrilib. Bir neçə gün əvvəl qardaş Türkiyədə fəaliyyətə başlamış "Star" neft emalı zavodunun açılışı bunun bariz nümunəsi idi.

### Təhsil həyatın özüdür

Tədbir əsnasında Bakıda ilk dəfə olaraq "İnnovasiyalar həftəsi"nin keçirilməsi, bütün dünyada ən mükəmməl süni intellekt nümunəsi sayılan robot Sofiyanın ölkəmizdə qonaq olması da VI Bakı Beynəlxalq Humanitar Forumuna əlavə məzmun gətirdi. Azərbaycan bununla müasir dünyamızın və bu dünyada ömür sürən insanın inkişafı ilə bağlı qlobal çağırışları bir daha Yer üzünə yetirdi. Göstərdi ki, dünyanın və insanın inkişafı ancaq və ancaq elmdən, dünyagörüşünün genişləndirilməsindən, texnologiyalardan, innovasiyalardan keçir. Bütün bunları isə ancaq təhsilin gücü ilə qazanmaq olar.

Bəzən biz təhsili, təlim və tərbiyəni gənc nəslin gələcək həyata hazırlanması prosesi kimi dərk edirik. Görkəmli Amerika filosofu və təhsil islahatçısı Con Dyui isə bir zamanlar deyirdi ki, "təhsil həyata hazırlıq deyil, təhsil elə həyatın özüdür". Yeni minillikdə təhsilin, oxuyub öyrənməyin, fərdi inkişafın həyati əhəmiyyəti isə digər bir Amerika yazıçısı və futuristi Alvin Tofflerin bu fikrində parlaq şəkildə öz əksini tapıb. O deyir ki, "XXI əsrin savadsızları oxumağı və yazmağı bacarmayanlar deyil, öyrənməyi, bildiklərini bir kənara qoymağı və yenidən öyrənməyi bacarmayan kəslərdir".

Müasir dövrümüzdə təhsil insan inkişafının ən mühüm tərkib hissələrindən biridir və insan inkişafı indeksində də 3 əsas komponentdən biri kimi əks olunmuşdur. Təhsil insanın bilik, bacarıq və səriştələr əldə etməsi sahəsində imkanlarını genişləndirir. İnsan kapitalını formalaşdırır. Həyatın keyfiyyətini dəyişir və iqtisadi artımın mənbəyi rolunu oynayır.

Müasir təhsil müəssisələri cəmiyyətin mədəni irsinin nəsildən-nəslə ötürülməsinə şərait yaradır. İnsanları onların iqtisadi və sosial statuslarını müəyyən edəcək peşəkar bilik və bacarıqlarla təmin edir. Eyni zamanda, təhsil müddətində uşaq və yeniyetmələrdə mənəvi ideallar, davranış stereotipləri və ətraf aləm haqqında rəy və təsəvvürlər formalaşır. İnsan inkişafı baxımından təhsil prosesi insanın imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Təhsilin səviyyəsi insanların həyat fəaliyyətinin müxtəlif cəhətlərinə, məsələn, sağlamlığına, siyasi fəaliyyətinə, klassik musiqi qavrayışına, sosial bağlılıqlarına, intizamlılığına və s. təsir göstərir.

Təhsil ev təsərrüfatlarının idarə olunmasında, uşaqların tərbiyəsində, onların qidalanmasının təşkilində, sağlamlığının və keyfiyyətli təhsilinin təmin edilməsində yeni bilik və texnologiyaların istifadə edilməsinə şərait yaradır. Ananın təhsil səviyyəsi yüksək olduqca, körpə və uşaq ölümü əmsalı aşağı düşür. Belə ki, ailədə gəlir səviyyəsindən asılı olmayaraq, uşaqlara qulluğun, onların təlim-tərbiyəsinin və qidalanmasının keyfiyyəti yaxşılaşır.

Təhsilli insanlar daha mürəkkəb və deməli, daha yüksək ödənişli işlərin öhdəsindən gələ bilir. Onlar fiziki və təbii kapitaldan daha səmərəli istifadə edərək son nəticədə məhsuldarlığı və iqtisadi kapitalı da artırmış olurlar. Bütün bunlar yeni dünya və yeni insanın formalaşdırılması, eləcə də kreativlik məsələləri baxımından çox önəmli məqamlardır.

Ona görə forumda təhsil məsələlərinə xüsusi diqqət yetirilməsi əsla təsadüf deyildi. Bu qlobal tədbirdə irəli sürülən bir çox vəzifələrin yerinə yetirilməsi məhz təhsil işçilərinin missiyasıdır. Və onlar bu missiyanı uğurla yerinə yetirə bilmək üçün elə forumun gedişində uyğun həllərin, faydalı əməkdaşlıq imkanlarının axtarışında idilər.

### Bakı Slavyan Universitetinin qonaqları

VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən elm-təhsil xadimlərindən bir qrupu Moskva Dövlət Linqvistik Universitetinin (MDLU) rektoru, professor İrina Krayeva, amerikalı politoloq, beynəlxalq jurnalist Piter Teys və Almaniyanın Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, professor Yeva Mariya Aux Bakı Slavyan Unversitetində (BSU) də oldular. Onlara universitetimizin beynəlxalq elmi əlaqələri, dünyanın tanınmış universitetləri ilə qurulan əməkdaşlıq çərçivəsində tələbə və müəllim mübadiləsi, elmi-pedaqoji kadrların ixtisaslarının artırılması sahəsində beynəlxalq əməkdaşlıq və digər məsələlər barədə geniş məlumat verildi.

BSU ilə Moskva Dövlət Linqvistik Universiteti arasında sıx əlaqələr var. Hər iki ali təhsil müəssisəsinin birgə təşkilatçılığı ilə elmi tədbirlər təşkil olunur, elmi nəşrlər hazırlanır və bir sıra başqa istiqamətlər üzrə faydalı əməkdaşlıq həyata keçirilir. BSU tərəfindən xaricdə Azərbaycan dili və mədəniyyəti mərkəzi ilk dəfə məhz MDLU-da açılıb. BSU-da fəaliyyət göstərən Rusiya Tədris və Mədəniyyət Mərkəzi nəzdində isə "Moskva auditoriyası" yaradılıb.

İrina Krayevanın universitetimizə səfəri zamanı BSU ilə Moskva Linqivistik Universiteti arasında 2005-ci ildən mövcud olan əməkdaşlığa dair yenilənmiş müqavilə imzalandı. Bu, iki ali təhsil müəssisəsi arasındakı əməkdaşlıq əlaqələrini möhkəmləndirir və Azərbaycan-Rusiya mədəni əlaqələrinin inkişafına xidmət edir.

Almaniyanın təhsil müəssisələri ilə də BSU arasında faydalı əməkdaşlıq əlaqələri mövcuddur. BSU-da 2010-cu ildən bəri Alman filologiyası kafedrası, 2015-ci ildən isə Germanistika İnstitutu fəaliyyət göstərir. İnstitutun nəzdində Vilhelm fon Humboldt adına alman dili və mədəniyyəti mərkəzi də yaradılıb. Burada alman dili ixtisası üzrə kadrlar hazırlanır.

Qonaqlarımız BSU-dakı Moskva və Sankt-Peterburq Tədris Mədəniyyət mərkəzləri ilə yanaşı, Türkiyə Araşdırmaları Tədris Mədəniyyət Mərkəzinə, Bolqarıstanın, Yunanıstanın, Polşanın tədris və mədəniyyət mərkəzlərinə də baş çəkərək auditoriyalarda dərslərin gedişini izlədilər, universitetimizin akt zalında slavyan ölkələrinin, Türkiyə və Azərbaycanın milli rəqslərinə tamaşa etdilər.

### "Modern dünya, modern insan"

Bu ərəfədə daha bir əcnəbi qonağımız Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellosu oldu. Son illər universitetimizin Yunanıstanın müvafiq elm-təhsil mərkəzləri ilə əlaqələri xeyli genişlənib. Burada səfir Nikolaos Kanellosunun əməyi böyükdür. Yunanıstanın ölkəmizdəki səfiri öz simasında iki mühüm cəhəti - bir rəssam olaraq yaradıcı insana məxsus keyfiyyətləri və sülh, barış çarçısı olan elçi xüsusiyyətlərini birləşdirir. O, BSU-da təşkil olunan tədbirlərdə həmişə fəal iştirak edib. Bu əlaqələrin xoş nəticəsi kimi ötən ilin 8 dekabrında cənab Nikolaos Kanellosunun vasitəçiliyi ilə BSU-da xarici ölkələrin Azərbaycandakı səfirlərinin görüşünü keçirdik.

Səfirlə görüş zamanı VI Bakı Beynəlxalq Humanitar Forumunun ortaya qoyduğu vəzifələrin reallaşması məqsədilə BSU-da "Modern dünya, modern insan" mövzusunda genişformatlı bir tədbirin keçirilməsi təklifini irəli sürdük. Universitetin belə bir tədbirə evsahibliyi etməyə, bütün təşkilati məsələləri üzərinə götürməyə hazır olduğunu bildirdik.

Fərqindəyik ki, belə tədbirlərin tələbələrin dünyagörüşünə, beynəlxalq aləmdə gedən proseslər barədə aydın təsəvvürə malik olmalarına, onların müasirlik ruhunda formalaşmasına müsbət təsiri çox böyükdür. Bizim bu təşəbbüsümüzü səfir Nikolaos Kanellosu da dəstəklədi. O, tədbirdə Azərbaycanda fəaliyyət göstərən səfirlərin iştirakını təmin etmək üçün vasitəçilik missiyasını yerinə yetirməyə hazır olduğunu da bildirdi. Noyabr ayına planlaşdırdığımız bu tədbirdə canlı dialoq formatında müzakirələr, təhsil, müasir siyasət, onun cəmiyyətlərə təsiri mövzularında fikir mübadilələri, düşünürük ki, gənclərimiz üçün faydalı olacaq.

VI Bakı Beynəlxalq Humanitar Forumunda irəli sürülən aktual vəzifələr, zənnimizcə, bu cür təşəbbüslər işığında reallığa çevrilir. Müasir dünya üçün müasir insanın formalaşdırılması hər kəsin bu prosesə bacardığı dəstəyi verməsi hesabına başa gəlir. Bu isə dövlətimizin rəhbərliyi altında dünyamızın gələcəyi üçün məsuliyyət hissini dərk edən hər kəsin birgə missiyasıdır.

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor***

# 1480 nəfər əsir-girovluqdan azad edilib, 871 vətəndaşımız isə hələ də Ermənistanda qanunsuz saxlanılır

## Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25-ci ildönümü tamam olur

*Əvvəli 1-ci səh.*

Sədr Mədət Quliyev bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da bu məsələ ümummilli liderin xüsusi diqqət ayırdığı prioritet sahə olub. Ulu öndər Heydər Əliyevin 1993-cü il avqustun 30-dan sentyabrın 1-dək İsveçrənin Cenevrə şəhərində keçirilmiş "Müharibə qurbanlarının müdafiəsi üzrə" beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciəti bunun bariz nümunəsidir: "Bütün dünyaya məlumdur ki, Azərbaycan Respublikası Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmışdır. Problem heç də yalnız onda deyil ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi və ərazi bütövlüyü ciddi təhlükə altına düşmüşdür. Bizim yüz minlərlə dinc vətəndaşımız doğma Vətənindən qaçqın olmuş, minlərlə adam bu gün də ermənilərin əlində girov kimi saxlanmaqdadır. Biz ilk gündən Ermənistanın Azərbaycana qarşı apardığı ədalətsiz müharibəni pisləyirik. Biz bu müharibənin doğurduğu zülm və dəhşətləri lənətləyirik. Uşaqların çəkdiyi əzab, anaların göz yaşları, minlərlə adamın şikəst olmuş taleyi bizi çox kədərləndirir. Lakin təəssüflər olsun ki, hələ də qan tökülür və insanların çəkdiyi əziyyətlərin sonu görünmür".

Bu müraciət Ermənistan tərəfindən humanitar hüquq normalarının pozulması faktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması barədə ilk rəsmi sənəd nümunəsidir. Törədilmiş müharibə cinayətlərinin cəzasız qalması ulu öndəri daim düşündürür və narahat edirdi. Buna görə də ümummilli lider 2001-ci il martın 1-də imzaladığı Sərəncamında Dövlət Komissiyasının qarşısında "Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və etnik təmizləmə siyasətini əks etdirən hüquqi-tarixi sənədlərin, əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlı materialların dünya ictimaiyyətinə çatdırılması üçün ardıcıl və məqsədyönlü" işin aparılması kimi zəruri vəzifə qoymuşdu.

Sərəncamdan sonra Komissiyada toplanmış çoxsaylı məlumat və materialların əsasında müxtəlif dillərdə kitablar tərtib edilib, filmlər çəkilərək beynəlxalq aləmdə yayılıb. Eyni zamanda, törədilmiş cinayət əməllərinin prosessual qaydada araşdırılması üçün Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti və Respublika Baş Prokurorluğunun əməkdaşlarından ibarət olan birgə istintaq-əməliyyat qrupu fəaliyyət göstərir.

Dövlət Komissiyasının sədri vurğulayıb ki, 2003-cü ildən sonra da ulu öndər Heydər Əliyevin siyasi xətti Azərbaycanda uğurla davam etdirildi. Müharibə qurbanları məsələsi bu kursun layiqli davamçısı Prezident İlham Əliyevin xüsusi diqqət ayırdığı sahələrdən biridir. Hər birimiz şəhid qəhrəmanlarımız Mübariz İbrahimovun, Fərid Əhmədovun, Çingiz Qurbanovun, o cümlədən Aprel şəhidlərinin düşmənin nəzarətində olan ərazilərdə qalmış cəsədlərinin alınaraq Vətən torpağına tapşırılması işində Prezidentin şəxsi səylərini, dəfn mərasimlərində iştirakını, ailələrlə görüşlərini və söylədiyi fikirləri yaxşı xatırlayırıq.






Təsadüfi deyil ki, builki seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini qazanmış Prezident İlham Əliyevin imzaladığı ilk rəsmi sənəd müharibə qurbanları ilə bağlı 2018-ci il 19 aprel tarixli Fərman olub. Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək. Bu fərman həmin kateqoriyadan olan insanlara və onların ailələrinə Prezidentin göstərdiyi qayğının bariz nümunəsi olmaqla yanaşı, gənclərdə hərbi vətənpərvərlik tərbiyəsinin formalaşmasına da çox ciddi təsir edən normativ hüquqi sənəddir.

"Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində uzun müddət keçməsinə baxmayaraq, münaqişənin həlli uzanır. Bu illər ərzində beynəlxalq təşkilatlar, xüsusən də Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıq nəticəsində 1480 nəfər əsir-girovluqdan azad edilsə də, 871 vətəndaşımızın hələ də Ermənistanda əsir-girovluqda saxlanması və beynəlxalq təşkilatlardan gizlədilərək qapalı məkanlarda, zərərli istehsal sahələrində işlədilməsi barədə məlumatlar mövcuddur. Daxil olan məlumatlara əsasən, ermənilər hətta əsir-girovlara Azərbaycan Respublikasını tamamilə işğal etdikləri və belə bir dövlətin artıq mövcud olmadığı barədə fikirlər təlqin edir, onlara psixoloji təzyiqlər göstərirlər. Əlbəttə ki, Azərbaycan həm qeyd etdiyim şəxslərin, həm də hazırda işğal edilmiş Dağlıq Qarabağda saxlanılan Dilqəm Əsgərov, Şahbaz Quliyev və Elnur Hüseynzadənin azad olunması üçün zəruri tədbirləri davam etdirir. Bu insanların azad edilməsi daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir və keçirdiyi müvafiq görüş və müzakirələrdə dövlət başçısı bu məsələni müntəzəm olaraq beynəlxalq qurumlara çatdırır.

Dövlət Komissiyası hazırda əsir-girovluqda saxlanılan və BQXK-nın qeydiyyatında olan şəxslərin "hamının-hamıya" prinsipi ilə azad edilməsi və bundan sonra saxlanılacaq şəxslərin qısa müddət ərzində tərəflərə təhvil verilməsi təklifini irəli sürsə də, Ermənistan bu humanist təklifə münasibət bildirməyib, müharibə qurbanlarının taleyinə biganə qalaraq heç bir əməli addım atmayıb. Buna səbəb Ermənistanın münaqişənin əvvəlindən humanitar məsələni siyasiləşdirmək və Dağlıq Qarabağdakı separatçı rejimi tərəf kimi təqdim etmək cəhdləridir", - deyə Dövlət Komissiyasının sədri Mədət Quliyev bildirib.

Qeyd olunub ki, Dövlət Komissiyası fəaliyyət göstərdiyi 25 il ərzində beynəlxalq humanitar hüquq normalarına hörmətlə yanaşıb, bu sahədə böyük iş təcrübəsi olan BQXK, BMT, ATƏT, Beynəlxalq İşçi qrupu və digər aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində işləyib, yaranmış ağır humanitar problemin həllində onların imkanlarından istifadə edib. Dövlət Komissiyası üçün faydalı olan bu əməkdaşlıq bundan sonra da səmərəli şəkildə davam etdiriləcək. Komissiya sədri Mədət Quliyev bu illər ərzindəki faydalı əməkdaşlığa görə BQXK-nın Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sesseraya və onun simasında bütövlükdə bu quruma dövlətimizin başçısının təşəkkürünü çatdırıb.

Dövlət Komissiyasının sədri daha sonra deyib: "Bu gün əsası ümummilli lider tərəfindən qoyulmuş "Respublika Xatirə Kitabı"nın itkin düşmüş vətəndaşlarımıza həsr edilmiş xüsusi buraxılışının birinci cildi diqqətinizə təqdim olunur. Azərbaycan və ingilis dillərində nəşr edilmiş xüsusi buraxılış bir neçə cilddən ibarət olacaq. Kitab Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Dövlət Komissiyası və "Respublika Xatirə Kitabı" redaksiyası tərəfindən tərtib edilib.

Sədr Mədət Quliyev qeyd edib ki, Komissiya fəaliyyət göstərdiyi 25 il ərzində humanitar problemlərin həlli istiqamətində müvafiq zəruri işlər görüb. Ancaq bu sahədə həllini gözləyən məsələlər çoxdur.

Sonra iclasda gündəlikdə duran məsələlər üzrə məruzələr dinlənilib.

Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov çıxış edərək bildirib ki, əsir-girov və itkinlərlə bağlı problemin aradan qaldırılması məqsədilə 1993-cü ildə yaradılmış Komissiya Azərbaycanın qoşulduğu beynəlxalq humanitar hüquq normaları, BQXK və digər aidiyyəti beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində işləyir. 1993-cü ildə başlıca vəzifə kimi, dövlət və qeyri-hökumət təşkilatlarında olan məlumatlar toplanıb və 4 min nəfərlə bağlı ilkin siyahı tərtib edilib, müvafiq saxlanma yeri ayrılıb. Əsir-girovların azad edilməsi və itkinlərin axtarışı prosesi mərkəzləşmiş şəkildə həyata keçirilib, BQXK və digər aidiyyəti beynəlxalq təşkilatlarla birgə görülən işlər nəticəsində 1480 nəfər əsir-girovluqdan azad edilib, onlarla bağlı zəruri reabilitasiya işləri aparılıb.

Ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə Komissiyanın qarşısında Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən xalqımıza qarşı törədilmiş cinayət əməllərinin araşdırılması və beynəlxalq ictimaiyyətin məlumatlandırılması kimi mühüm vəzifə müəyyən etdiyini bildirən İ.Axundov qarşıya qoyulmuş tələblərin icrası ilə bağlı azad edilmiş vətəndaşlarımızın videoifadələrinin alınaraq arxivləşdirildiyini, ermənilər tərəfindən törədilmiş cinayət əməllərinin prosessual qaydada araşdırılması məqsədilə "Dağlıq Qarabağın silahlı separatçı qüvvələri və Ermənistanın hərbi birləşmələri tərəfindən törədilmiş cinayət hadisələrinin istintaqı ilə əlaqədar birgə istintaq-əməliyyat qrupu"nun yaradıldığını, hazırda bu qrupun Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda fəaliyyətini davam etdirdiyini diqqətə çatdırıb.

İ.Axundov Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 30 oktyabr tarixli Sərəncamı ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə həyata keçirilmiş islahatlardan sonra bu sahədə vəziyyəti təhlil edərək ölkə rəhbəri tərəfindən müəyyən edilmiş vəzifələrin icrasını sürətləndirmək, işə sistemli yanaşmaq və prioritetlərin müəyyən olunması üçün İşçi qrupunun qarşısında bir sıra ciddi tələblər qoyulduğunu vurğulayıb. Qeyd olunub ki, ilkin vəzifə olaraq itkin düşmüş şəxslərə aid siyahı dəqiqləşdirilib və hazırda Dövlət Komissiyasında 3888 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlara aid fotoşəkillər toplanıb və yenilənmiş bazalara əlavə edilib, fotoşəkilləri olmayan itkinlərin fotorobotlarının hazırlanması üçün zəruri tədbirlər görülüb, axtarış-araşdırma, ekshumasiya və identifikasiya sahəsində beynəlxalq təcrübə öyrənilib. Həmçinin BQXK ilə imzalanmış çərçivə sazişinə uyğun olaraq itkin düşmüş şəxslərin yaxın qohumlarından toplanmış bioloji nümunələrin DNT formulalarının çıxarılması üçün Daxili İşlər Nazirliyi ilə məsləhətləşmələr aparılıb, intensiv hərbi əməliyyatlar dövründə həlak olaraq ölkə ərazisində tanınmadan dəfn edilmiş 195 naməlum məzarın yeri müəyyənləşdirilərək GPS koordinatları çıxarılıb, dövlət başçısının tapşırığı ilə əsir-girovluqdan azad edilmiş şəxslərin ifadələri əsasında Azərbaycan və ingilis dillərində kitab nəşr edilib və digər tapşırıqlar icra olunub.

"Respublika Xatirə Kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova ümummilli lider tərəfindən yaradılmış Xatirə kitabının itkin düşmüş şəxslərə həsr edilmiş xüsusi buraxılışının Dövlət Komissiyasının İşçi qrupunun yaxından köməyi ilə birinci cildinin nəşr olunduğunu diqqətə çatdırıb. Növbəti cildlərin üzərində işin davam etdirildiyini bildirən baş redaktor göstərilmiş dəstəyə və köməyə görə Komissiya sədrinə təşəkkürünü ifadə edib.

BQXK-nın Azərbaycandakı nümayəndəliyinin başçısı Elena Aymone Sessera təmsil etdiyi qurumun Azərbaycanda fəaliyyətə başladığı vaxtdan etibarən münaqişə qurbanları ilə bağlı Komissiya və digər aidiyyəti dövlət qurumları ilə qarşılıqlı anlaşma əsasında əməkdaşlıq etdiyini deyib. O, saxlanma yerlərində əsir-girovlara baş çəkildiyini, "Qızıl Xaç məktubları"nın ailələrə və saxlanılan şəxslərə çatdırıldığını, həlak olmuş şəxslərin cəsədlərinin qarşılıqlı repatriasiyasına vasitəçilik edildiyini, hazırda isə "Ante Mortem", "Post Mortem" proqramları çərçivəsində təxirəsalınmaz işlərin aparıldığını bildirib.

Dövlət Komissiyasının üzvü, Azərbaycan Respublikası baş prokurorunun müavini-hərbi prokuror Xanlar Vəliyev rəhbərlik etdiyi istintaq əməliyyat qrupunun fəaliyyəti barədə məlumat verib. O, tanınmadan dəfn edilmiş məzar yerlərində aparılacaq ekshumasiya və identifikasiya işlərinin prosessual tələblərə uyğun şəkildə təşkili üçün Hərbi Prokurorluq tərəfindən zəruri köməyin göstəriləcəyini bildirib.

Məruzə ətrafında çıxış edən Dövlət Komissiyasının üzvü, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalov Daxili İşlər Nazirliyinin itkinlərlə bağlı axtarış-araşdırma və siyahıların dəqiqləşməsi prosesində, fotorobotların hazırlanması, atəşkəsin pozulması nəticəsində şəhid olmuş soydaşlarımızın cəsədlərinin ailə üzvlərinə çatdırılması işlərində yaxından iştirak etdiyini, itkin ailələrindən toplanmış bioloji nümunələrin DNT formulalarının çıxarılmasına kömək göstərməyə hazır olduğunu deyib.

Dövlət Komissiyasının üzvü, Milli Məclisin Sədr müavini Bahar Muradova bildirib ki, Ermənistan beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərə və dövlətlərarası qaydalara etinasızlıq göstərir. Ermənistanın törətdikləri təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə bəşəriyyətə qarşı cinayətdir.

Bahar Muradova qeyd edib ki, Azərbaycan Ermənistanın təcavüzkar, vandal üzünü ardıcıl, məqsədyönlü şəkildə dünya ictimaiyyətinə çatdırır. Dövlət Komissiyasının son 25 ildə gördüyü işlər bu kontekstdə dəyərləndirilməlidir.

Sonra məruzələr ətrafında müzakirələr olub, Komissiya üzvlərinin fikir, təklif və tövsiyələri dinlənilib.

Müzakirələrdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik, Milli Məclisin deputatı İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, "Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruz Aslanov və başqaları çıxış edərək mürəkkəb və mühüm bir missiyanı həyata keçirən bu qurumun 25 illik fəaliyyətindən danışıblar.

İclasa yekun vuran Komissiyanın sədri Mədət Quliyev qeyd edib ki, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla bağlı problem Azərbaycan dövlətini, ictimaiyyəti narahat edən və həllini gözləyən vacib məsələdir. Ona görə də həm Komissiya üzvləri, həm də İşçi qrupu öz məsuliyyətini dərindən dərk etməli, işini Prezident İlham Əliyevin tələbləri səviyyəsində qurmalıdır.

Qeyd edilib ki, Ermənistan ordusu tərəfindən həyata keçirilən təxribatlar və atəşkəs rejiminin intensiv pozulması halları narahatlıq yaradan əsas amildir. Təəssüf ki, belə əməllər insan itkisi ilə nəticələnir və müharibə qurbanlarının sayı artır. İşğal faktının mövcudluğu, Ermənistanın problemin həllində qeyri-konstruktiv mövqeyi sülh variantını hələ də sual altında qoyur. Bu baxımdan Komissiya hər bir situasiyaya hazır olmalıdır.

Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması barədə göstərişləri üzrə fəaliyyətin daha səmərəli və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün səylərin və əlaqələndirmə işinin gücləndirilməsinin vacibliyini qeyd edən sədr Mədət Quliyev Komissiyanın İşçi qrupu tərəfindən üzə çıxarılan həqiqətlərin, ölkəmizlə bağlı məlumatların beynəlxalq aləmdə yayılmasında müvafiq qurumların imkanlarından sistemli şəkildə istifadə olunmasının əhəmiyyətini vurğulayıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Mədət Quliyev Prezident İlham Əliyevin qurumun üzvlərinə göstərdiyi etimadı bundan sonra da doğruldacaqlarını, Dövlət Komissiyasının qarşısında qoyulan vəzifələrin icrası üçün daha səylə çalışacaqlarını bildirib.

# Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında uğurla çıxış edən idmançılarımız mükafatlandırılıblar






Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında uğurla çıxış edən idmançılarımız noyabrın 1-də Milli Olimpiya Komitəsində mükafatlandırılıblar. AZƏRTAC xəbər verir ki, tədbirdə gənclər və idman naziri Azad Rəhimov, MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə və Xəzər İsayev, komitənin baş katibi Ağacan Abiyev, baş katibin müavini Azər Əliyev və idman federasiyalarının nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qazandıqları nailiyyətlər münasibətilə atletləri təbrik edib. Bildirib ki, idmançılarımız bu oyunlarda da uğurlu nəticələr əldə edərək idmanın altı növündə 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar. İdmanın altı növü üzrə yeddi medalın qazanılması Azərbaycanın idman ölkəsi olduğunu bir daha sübut edib.

Gənclər və idman naziri Azad Rəhimov çıxışında Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının medalçıları arasında Azərbaycan idmançılarının da olmasını sevindirici hal kimi qiymətləndirib: "Fərəhli haldır ki, 17 idmançımızdan 7-si medal qazanıb. Bu isə atletlərimizin potensialını bir daha sübut edir".

Sonra dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsinə dair imzaladığı sərəncamlara əsasən idmançılar təltif olunublar.

İdmançılar və məşqçilər çıxış edərək göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevə, eləcə də Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Olimpiadaya 17 idmançı ilə yollanan milli komandamız 2-si qızıl, 1-i gümüş və 3-ü bürünc olmaqla 6 medal qazanıb. Qızıl medalları Azərbaycanın aktivinə cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) yazdırıblar. Ağırlıqqaldırma yarışında çıxış edən Tarmenxan Babayev (85 kq) Olimpiadanın gümüş medalına sahib olub. Bürünc medallara isə taekvondoçu Cavad Ağayev (63 kq), boksçu Nurlan Səfərov (60 kq) və güləşçi Şahanə Nəzərova (43 kq) layiq görülüblər. Bədii gimnastımız Yelizaveta Luzanın Olimpiadada qarışıq komandanın tərkibində qazandığı qızıl medal millimizin aktivinə yazılmayıb. Beynəlxalq Olimpiya Komitəsinin qərarına əsasən, onun medalı ümumi sıralamada komandamızın hesabında göstərilməyib. Beləliklə, Azərbaycan milli komandası Olimpiadanın medal sıralamasında 33-34-cü yerləri bölüşüb.

# Qərb Ermənistandan tam üz döndərir

## *Yeni ictimai-siyasi gərginlik dövrünə qədəm qoyan ölkə parlament seçkilərinə vətəndaş müharibəsi ab-havası ilə gedir*

*Əvvəli 1-ci səh.*

Məsələn, "Jamanak" qəzeti yazır ki, Ermənistanın hüquq-mühafizə orqanları həbsdə olan eks-deputat Manvel Qriqoryana Serj Sarkisyana qarşı ifadə verməsi qarşılığında azadlığa çıxmağı təklif edib: "Qriqoryan bu sövdələşmədən imtina edərək məhkəmənin onun işinə baxmasını gözləyir. Manvel Qriqoryana qarşı ən ciddi ittihamlar kimi qanunsuz silah-sursat saxlanması göstərildiyinə görə istintaq tez bir şəkildə işi bağlamaq və məhkəməyə göndərmək niyyətindədir. Hüquq-mühafizə orqanları çox gözəl başa düşürlər ki, "Yerkrapa" könüllülər birliyinin keçmiş sədri Manvel Qriqoryana qarşı belə bir ittihamla qaldırılmış işə baxılmasının əks təsirləri ola bilər. Bu zaman Qriqoryan şübhəlidən ittihamçıya çevrilə bilər".

### Ermənistanda seçki prosesinə neqativ münasibət yaranıb

Hesab edilir ki, Paşinyanın Serj Sarksiyana qarşı hərəkətə keçməsi heç də təsadüfi deyil. "Jamanak" yazır ki, Serj Sarkisyanın sədri olduğu Respublika Partiyası növbədənkənar parlament seçkilərində iştirakla bağlı qərar qəbul edib. Buna isə Paşinyan təhdid kimi yanaşır. Artıq digər sabiq prezident Robert Koçaryana qarşı da cinayət işlərinin yenilənməsi üçün addımlar atılır.

Robert Koçaryan isə yenə bəyan edir ki, o, Nikol Paşinyanla mübarizə aparır və məqsədinə nail olmaq üçün hər şey edəcək. O, partiya yaratmaq və müxalifət olmaq niyyətini açıqlayıb. Lakin Paşinyanın sabiq prezidentlərə təzyiqi və onlara yaxın xeyli sayda adamı həbs etdirməsi Ermənistanda parlament seçkilərinin demokratik şəraitdə baş tutacağını ciddi sual altına alır.

Görünür, elə bu səbəbdəndir ki, indinin özündə Ermənistanda seçki prosesinə neqativ münasibət yaranıb. Çünki Ermənistanda baş verənlərin demokratiya ilə heç bir əlaqəsi yoxdur. Söhbət faktiki olaraq güc yolundan, şantajdan istifadə edərək hakimiyyətin zorla ələ alınmasından gedir. Bu ölkədəki sonrakı hadisələr bir daha göstərir ki, populizmə üstünlük verən, xalqın emosional əhvalından istifadə edən Paşinyan hakimiyyətə gəldikdən sonra siyasi kursu daha da despotik şəkildə davam etdirir. Məsələ bundadır ki, Paşinyan rüşvətxorluğa, bürokratiyaya qarşı "müharibə" elan olunduğunu iddia etsə də, əslində müharibə onun siyasi rəqiblərinə qarşı aparılır. Bununla dekabr ayında keçirilməsi nəzərdə tutulan parlament seçkiləri öncəsi Paşinyana alternativ rəqiblərin hamısı sıradan çıxarılır. Ölkədə siyasi repressiyaların və təqiblərin genişlənməsi müşahidə edilir.

### Beynəlxalq ictimaiyyət də narazıdır

Amma belə vəziyyət beynəlxalq ictimaiyyəti də narazı salır. Bura Qərb ölkələri və təşkilatları da daxildir. Bu durumda Paşinyanın əsas məqsədi sosial-iqtisadi islahatlar, Seçki Məcəlləsinə dəyişikliklər adı altında Qərb institutlarından bacardıqca çox maliyyə qoparmaqdır. Amma görünən budur ki, Qərb Paşinyana qarış səxavətli olmaq istəmir. Bunun nəticəsidir ki, Avropa İttifaqı (Aİ) Ermənistanda seçkilər üçün 3 milyon avro ayırmaqla kifayətlənib. Məlumat üçün bildirək ki, oktyabrın 17-18-də Avropa İttifaqının xarici fəaliyyət xidmətinin yüksək vəzifəli rəsmisi Tomas Mayr Hartinq və Aİ-nin yardımlarını əlaqələndirən Vasilis Maraqos Ermənistanda səfərdə olublar.

Səfərin nəticəsi kimi Aİ növbədənkənar parlament seçkilərinin şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi məqsədilə Ermənistana 3 milyon avro vəsaitin ayrılmasına qərar verib. Halbuki, qurum 2017-ci ilin aprelində keçirilmiş parlament seçkilərinin təşkili üçün vaxtilə bu ölkəyə 7 milyon avro ayırmışdı. Lakin bu dəfə Avropa İttifaqı Ermənistana göstərəcəyi maliyyə dəstəyinin həcmini 2 dəfə azaldıb. Bu, həm də Paşinyana olan etimadsızlığın nəticəsi sayılır.

Eləcə də Ermənisan daxilində baş nazirə qarşı etimadsızlıq artır. Ekspertlərin fikrincə, Nikol Paşinyanın daxili siyasətdə öz rəqiblərinə müharibə elan etməsi ölkənin onsuz da çətin olan sosial-iqtisadi vəziyyətini daha da ağırlaşdırır. Paşinyanın Ermənistan xalqına verdiyi vədləri yerinə yetirə bilməməsi cəmiyyətdə narazılıqlar yaradır. Ermənistan vətəndaşları artıq səsləndirilən bəyanatlara inanmır, konkret nəticə görmək istəyir. Amma Paşinyan bunları edə bilmir. Elə bu da dekabr seçkilərində sürprizlərin olmasını istisna etmir.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

# Bərəkətli bayram

Ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü geniş qeyd olundu. Azərbaycanda da əsrlər boyu əhalinin böyük əksəriyyəti kəndlərdə yaşayıb, əkinbiçinlə, heyvandarlıqla məşğul olub. Ona görə də kənd adamı kimi bu bayramın hər birimizin qəlbində öz yeri, yurd-yuvası var. Çünki bu bayram həm də hər birimizə aid olan zəhmətlə, torpaqla, su ilə bağlıdır.



Biz yetişdirdiyimiz neməti müqəddəs ruzi kimi süfrəyə düzən, suya, çörəyə və əlinin qabarına səcdə edən bənzərsiz bir xalqıq. Yer adamıyıq, torpağa, onun bəxş etdiyi nemətlərə maddiyyatdan daha çox mənən bağlıyıq. Süfrəyə düzülən nemətlərə görə Tanrıya minnətdarlıq etməyimiz, birinci böyüyün çörəyə əl uzatmasını gözləməyimiz, elə süfrə arxasında bütün dünyanın aclarına və kasıblarına bolluq və xeyir-bərəkət arzulamağımız, çörək süfrədən götürülməmiş ayağa durmamağımız da mənəviyyatımızın müdrikliyinə işarədir.

Kəndli bütün varlığı ilə torpağa bağlıdır. O, qışda torpağın yuxuya gedib dincəlməsini, oyanıb yaza qol-qanad açmasını ana öz balasını hiss edən kimi duyur, başa düşür. Dünyada elə ölkələr olub ki, orada kəndli təhkimçi və bütün hüquqlarını itirmiş adam olub, onu mal-qarası ilə birlikdə satışa çıxarıblar, ya da qul kimi plantasiyalarda son nəfəsinədək işlədiblər. Öləndə də yeni qullarla əvəz ediblər. Onlar vətənsiz, yurdsuz olublar, ətraflarında nə varsa, hətta ayaqlarının altındakı torpaq belə onlara qənim kəsilib.

Azərbaycan kəndlisi isə, sadaladıqlarımızdan fərqli olaraq, həmişə ən azından mənəvi cəhətdən azad olub. Çünki o özünü mənən də olsa, üstündə gəzdiyi torpağın sahibi, yiyəsi sayıb. Hətta kolxozların, sovxozların çiçəkləndiyi sovet dönəmi də Azərbaycan kəndlisinin bu mənəviyyatını əlindən ala bilməyib.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra yeni inkişaf yoluna qədəm qoyub. Dövlətin aqrar sektorda islahatlara başlaması ilə Azərbaycan kəndinin və kəndlisinin həyatında yeni dövr başlayıb. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan aqrar islahatlar onu bu dəfə torpağının əsl sahibinə çevirib. Dünən kolxozçu olmuş Azərbaycan kəndlisi indi nə və nə qədər əkib-becərdiyinə sərəncam verən fermerdir.

Bu gün kəndlərimizin siması da dəyişib. Yaxın keçmişdə adi işıq, təbii qaz və sudan korluq çəkən kəndlərimiz hazırda abadlığına görə müasir qəsəbələrdən geri qalmır. Onun bütün tələblərə cavab verən sosial infrastrukturu, istehsal olunan məhsulu saxlamaq üçün anbar və soyuducuları, hətta hələ istənilən sayda olmasa da, emal müəssisələri var. Kəndlilər istehsal etdikləri məhsulları bu gün rahat yollarla istədikləri ünvanlara aparıb sata bilirlər. Belə məhsulların isə həcmi və çeşidi ilbəil artır. Çünki dövlətin bir əli artıq neçə ildir kəndlinin üzərindədir. O, günü bu gün də saysız imtiyazlar və güzəştlərdən geninə-boluna yararlanır. Prezident İlham Əliyevin təşəbbüsü və səxavətlə ayırdığı vəsaitlə yaradılan müasir aqroparklar, nəhəng aqrokomplekslər isə Azərbaycanda kənd təsərrüfatının forma və məzmununu dəyişib, onu inkişaf etmiş ölkələrdə mövcud olan səviyyəyə qaldırıb.

Yalnız nadir və böyük iqtisadi imkanları olan ölkələr belə qısa müddət ərzində bu cür nəhəng işlər görə bilərdi. Bəziləri də elə fikirləşirdi ki, Azərbaycan kimi uzunmüddətli münaqişəyə təhrik edilən ölkənin dünya düzənində böyük uğurlara imza atması mümkün deyil. Amma biz qarşıya qoyduğumuz məqsədlərə nail olmuşuq. Azərbaycanın həm aqrar sektorda, həm də iqtisadiyyatın digər sahələrində qazandığı uğurlar bizi dünyanın sayılıb-seçilən ölkələrindən biri edib. Azərbaycan kəndlisi isə bu uğurların müəlliflərindən biridir və o, ölkə iqtisadiyyatında xüsusi çəkiyə və nüfuza malikdir. Onun arxasında Prezident İlham Əliyevin timsalında Azərbaycan dövləti dayanır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Kənd Təsərrüfatı İşçiləri Gününə həsr olunmuş təntənəli yığıncaq keçirilib

Kənd Təsərrüfatı Nazirliyində 1 noyabr - Kənd Təsərrüfatı İşçiləri Gününə həsr olunmuş təntənəli yığıncaq keçirilib. Yığıncaqda çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edib.





Kənd Təsərrüfatı Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə nazir İnam Kərimov Azərbaycanın böyük əkinçilik ənənələrinə malik ölkələrdən biri olmasından söz açıb. O deyib: "Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və gərgin əməyi ilə həm sovet dövründə, həm də müstəqillik əldə edildikdən sonra bütün sahələrdə olduğu kimi, aqrar sahədə də ciddi islahatlar aparılıb, resurslardan səmərəli və məqsədyönlü istifadə təmin olunub, sahənin dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb. Əsası ümummilli lider tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu aqrar siyasət nəticəsində kənd təsərrüfatı ölkə iqtisadiyyatında xüsusi yer tutur".

İnam Kərimov qeyd edib ki, aqrar sektor əhalinin ərzaq təhlükəsizliyinin təminatında böyük rol oynayır: "Aqrar sahə həm də əhalinin ən böyük məşğulluq sahəsidir. Hazırda ölkədə ailə üzvləri də nəzərə alınmaqla təxminən 1,5 milyon insan öz dolanışığını, maddi təminatını kənd təsərrüfatı sektorunda çalışaraq təmin edir. Bu o deməkdir ki, bu əlamətdar gün Azərbaycanda həm də təxminən milyon yarım insanın peşə bayramıdır".

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin aqrar məsələlər üzrə köməkçisi Azər Əmiraslanov yığıncaq iştirakçılarına dövlət başçısının salam və təbriklərini çatdırıb. O bildirib ki, Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı fərman əsasında hər il noyabrın 1-nin Azərbaycanda Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunması dövlətin fermerlərə göstərdiyi diqqətin təzahürüdür: "Bu, eyni zamanda, onu göstərir ki, kənd təsərrüfatının inkişafı dövlətin yürütdüyü siyasətdə hələ də prioritet sahə olaraq qalmaqdadır".

Daha sonra Azər Əmiraslanov Prezident İlham Əliyevin kənd təsərrüfatı sektorunda çalışan bir qrup şəxsin fəxri ad, orden və medallarla təltif olunmasına dair imzaladığı sərəncamı oxuyub, təltif olunan şəxsləri təbrik edib: "Fermerlərin cəmiyyətdə xüsusi yeri var. Bu səbəbdən dövlət başçısı bu sahəni həm iqtisadi, həm də sosial sahə hesab edir. Aqrar sahədə islahatlar davam edəcək. Kənd təsərrüfatına dövlət dəstəyinin daha səmərəli həyata keçirilməsi, ünvanlılığın təmin olunması vacibdir. Prezidentin də kənd təsərrüfatı işçilərindən gözləntiləri var. Fermerlər daha keyfiyyətli məhsul istehsal etməlidir. Əminəm ki, dövlətin dəstəyini həmişə hiss edən aqrar sektorun təmsilçiləri ilə birgə daha böyük uğurlara imza atacağıq".

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Azərbaycanın MDB məkanında ən dinamik inkişaf edən ölkə olduğunu deyib, Prezident İlham Əliyevin yürütdüyü aqrar siyasətin prioritetləri barədə məlumat verib. O, növbəti ilin dövlət büdcəsində kənd təsərrüfatına vəsaitin 13,9 faiz artırılmasının nəzərdə tutulduğunu deyib. Ölkədə ilin sonuna kimi daha 13 aqroparkın istifadəyə veriləcəyini deyən Eldar İbrahimov bildirib ki, kənd təsərrüfatının inkişafı üçün müvafiq infrastrukturun daha da yaxşılaşdırılması istiqamətində işlər görülür. Aqrar sahənin qanunvericilik bazasının daha da təkmilləşdirildiyini deyən Eldar İbrahimov Milli Məclisin adından kənd təsərrüfatı işçilərini peşə bayramı münasibətilə təbrik edib.

Azərbaycan Prezidentinin sərəncamına əsasən, təltif olunan Bədrəddin Həsrətov, Teymur Bəhramov, Bayram Əlləzov, Fatma Hüseynova dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər. Toplantıda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin kənd təsərrüfatı işçilərinə təbrik məktubu oxunub.

Tədbirin sonunda Kənd Təsərrüfatı İşçiləri Gününə həsr olunmuş təntənəli yığıncağın iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul olunub. Müraciətdə bildirilir ki, Prezidentin imzaladığı son fərman və sərəncamlar, eyni zamanda, aqrar sahəyə göstərdiyi daimi diqqət və qayğı nəticəsində kənd təsərrüfatının bütün sahələri dinamik inkişaf edib, köklü dəyişikliklər baş verib və zəruri potensialın formalaşdırılması üçün məqsədyönlü tədbirlərin icrası uğurla davam etdirilir. İştirakçılar göstərdiyi diqqət və qayğıya görə aqrar sahənin işçiləri, fermer və sahibkarlar adından dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

# Çinin Xefey şəhərində Azərbaycanşünaslıq Mərkəzi fəaliyyətə başlayıb




Son illər Azərbaycan ilə Çin arasında digər sahələrdə olduğu kimi, humanitar istiqamətdə də münasibətlər inkişaf edir. Elm və təhsil ocaqlarının səmərəli əməkdaşlığı iki ölkə arasında əlaqələrin dərinləşməsinə öz töhfəsini verir. Çinin Xefey şəhərindəki nüfuzlu Anxoy Universitetində Bakı Dövlət Universitetinin (BDU) dəstəyi ilə açılan Azərbaycanşünaslıq Mərkəzi ölkələrimizin humanitar sahədə əməkdaşlığının parlaq nümunəsidir.

AZƏRTAC xəbər verir ki, mərkəzin açılış mərasimində çıxış edən Anxoy Universitetinin rektoru Kuan Quanli deyib ki, iki ölkə arasında qədim tarixi olan dostluq münasibətləri müasir dövrümüzdə yeni müstəvidə inkişaf edir. 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin yaranmasından sonra münasibətlərimizin yeni mərhələsinin başlandığını bildirən rektor son illərdə əməkdaşlığın daha da genişləndiyini bildirib.

Kuan Quanli iki ölkənin humanitar sahədə əlaqələrindən danışaraq, rəhbərlik etdiyi Anxoy Universiteti ilə Bakı Dövlət Universitetinin faydalı əməkdaşlığından söz açıb, Bakıda Konfutsi İnstitutunun fəaliyyətinə göstərdiyi dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür edib.

Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmov bildirib ki, Avropa və Asiyanın qovuşuğunda, qədim İpək yolu üzərində yerləşən Azərbaycanda tarixən mövcud olan bərabərlik, dözümlülük və sülh prinsipləri bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Anxoy Universitetində Azərbaycanşünaslıq Mərkəzinin açılmasının əlamətdar hadisə olduğunu bildirən Abel Məhərrəmov bunun iki ali təhsil ocağının əməkdaşlığı sayəsində reallaşdığını deyib. Bildirilib ki, xalqımızın zəngin mədəni irsinin, tolerantlıq, multikulturalizm dəyərlərinin təbliğində vacib rol oynayacaq mərkəz Azərbaycanın tarixinə, siyasətinə, iqtisadiyyatına, mədəniyyətinə dair tədqiqatların aparılmasına dəstək olacaq.

Akademik A.Məhərrəmov bu il 90 yaşı tamam olan Anxoy Universitetini yubiley münasibətilə təbrik edib, Çinin bu nüfuzlu ali təhsil ocağı ilə BDU arasında əməkdaşlığın hər iki tərəf üçün faydasından danışıb.

Akademik Abel Məhərrəmov Anxoy Universitetinin rəhbərliyini gələn il keçiriləcək Bakı Dövlət Universitetinin 100 illik yubileyi tədbirlərinə dəvət edib.

Azərbaycan ilə Çin arasında bütün sahələrdə yaxşı əməkdaşlıq əlaqələrinin olduğunu bildirən ölkəmizin Çindəki səfiri Əkrəm Zeynallı bu münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə dövlət səfərinin və səfər zamanı imzalanmış sənədlərin əlaqələrimizin genişlənməsində böyük rolu olub.

Sonra Bakı Dövlət Universiteti ilə Anxoy Universiteti arasında Azərbaycanşünaslıq Mərkəzinə dair müqavilə imzalanıb. Sənədi BDU-nun rektoru akademik Abel Məhərrəmov və Anxoy Universitetinin rektoru Kuan Quanli imzalayıblar.

Mərasim iştirakçıları mərkəz ilə yaxından tanış oldular. Qeyd edək ki, Bakı Dövlət Universiteti Azərbaycanşünaslıq Mərkəzini lazımi avadanlıq, Azərbaycan dilinin və ədəbiyyatının tədrisinə, mədəniyyətinə, tarixinə dair çoxsaylı materiallarla təmin edib. Mərkəz müxtəlif formalarda birgə elmi tədqiqatların, mədəni mübadilənin təşkili, habelə Çindən Azərbaycana göndərilən tələbə və müəllimlər üçün əlaqələndirməni həyata keçirəcək.

* * *

Azərbaycan nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Bakı Dövlət Universitetinin nəzdindəki Konfutsi İnstitutunun İdarə Heyətinin iştirakı ilə institutun illik iş planı, birgə tədqiqat işləri və elmi işçilərin mübadiləsi istiqamətində müzakirələr aparılıb.

Bundan başqa, Anxoy Universitetində və Çin Təhsil Nazirliyinin Xanban Baş İdarəsində keçirilən görüşlərdə elm və təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsinə, yeni birgə layihələrin icrasına, Bakıda Konfutsi İnstitutunun fəaliyyətinin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Qabaqcıl pambıqçı fermer həm də nümunəvi hami-tərbiyəçidir

Rauf Cəfərov Neftçala rayonunun Dördlər kəndində doğulub, boya-başa çatıb. 21 yaşı var. 2015-ci ildə qonşu Astanlı kəndindəki tam orta məktəbi bitirərək sənədlərini ali məktəbə verib. Arzusu aqronom olmaq idi. Birinci il Gəncədəki Kənd Təsərrüfatı Akademiyasının Energetika fakültəsinə qəbul olunsa da, qərara gəlir ki, hazırlaşıb ikinci il də imtahan versin. Elə də edir və aqronomluq fakültəsinə daxil olur. Hazırda qiyabi yolla ikinci kursda təhsil alır.



Ot kökü üstə bitər, deyiblər. R.Cəfərov Sovet İttifaqı Qəhrəmanı Ağaşirin Cəfərovun nəticəsidir. Bu qəhrəman haqqındakı şirin söz-söhbətlər dildə-ağızda gəzir. Deyirlər ki, müharibədən sonra A.Cəfərova hörmət əlaməti olaraq kolxoz sədri işləməyi təklif ediblər. Bir neçə gün işlədikdən sonra raykom katibinin yanına gəlib deyir ki, kolxoz sədrliyi onun işi deyil: "Xahiş edirəm, mənə öz peşəm üzrə bir iş verəsiniz". Bundan sonra o, uzun müddət "Neftçalaneft" NQÇİ-də buldozerçi işləyib.1971-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Neftçalaya gələrkən onu qarşılayanlar arasında A.Cəfərov da olub. Söhbət zamanı Heydər Əliyev A.Cəfərovdan çətinliyi, ehtiyacı barədə soruşanda bildirib ki, buldozeri köhnəlib, mümkünsə, ona təzəsini versinlər. Heydər Əliyev gülümsəyərək: "Mən elə bilirdim ki, sən də başqaları kimi məndən "QAZ-24" və ya Bakıda ev istəyəcəksən" - deyib.

Bunları eşitdikcə düşünürsən ki, belə bir kişinin ocağından çıxan gənc də zəhmətə, torpağa bağlı olmalıdır. Rauf Cəfərov respublikamızda gedən inkişafı, ölkə rəhbəri İlham Əliyevin pambıqçılığa göstərdiyi diqqət və qayğını görüb seçdiyi peşədə yanılmadığını yəqin edib. Digər tərəfdən, 2017-ci ilin nəticələrinə görə, yaşadığı inzibati ərazi nümayəndəliyinin Boyat kənd sakini, təcrübəli pambıqçı Əlihüseyn Hacıyevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi ürəyində yeni arzular oyadıb. Ailələrinin 7 hektar pay torpağında pambıq əkmək istədiyini atası Telman Cəfərova bildirib. Telman ani olaraq fikrə gedəndən sonra: "Etirazım yoxdur, seçdiyin işin, peşənin dalınca gedirsən. Amma təcrübəli adamlarla məsləhətləşsək, lap yaxşı olar", - cavabını verib.

Ertəsi gün ata-bala ərazi inzibati nümayəndəsi Asif Qəfərovun yanına gəliblər. İdarədə görüşüb hal-əhval tutduqdan sonra atası gəlişlərinin məqsədini bildirib. Ərazi nümayəndəsi 21 yaşlı Raufun təşəbbüsünü bəyənib: "Mən özüm də 1982-ci ildə Gəncədəki Kənd Təsərrüfatı Akademiyasının İqtisadiyyat fakültəsini bitirmişəm. Buna baxmayaraq, kəndçi balası, keçmiş briqadir oğlu kimi pambıqdan az-çox başım çıxır. Sizin pay torpaqlarınıza da yaxşı bələdəm, məhsuldar yerlərdir. Amma bir təklifim var. Gəlin bu məsələni Əlihüseyn kişi ilə məsləhətləşək. Bilirsiniz ki, indi nəinki bizim ərazidə, hətta bütün Neftçalada pambığın dilini onun kimi bilən yoxdur. Keçən il Prezident rayonumuza gələrkən onun sahələrində oldu, işini bəyəndi. Qazandığı nailiyyətə görə onu "Əmək" ordeni ilə təltif etdi".

- Biz də elə onunla görüşmək istəyirik. Yanına gəldik ki, bir yerdə Əlihüseyn kişidən məsləhət alaq.

A.Qəfərov Əlihüseyn kişiyə zəng edəndən sonra maşına oturub fermerin sahəsinə yollandılar. Təcrübəli pambıqçı onları söyüd ağacının kölgəsində qarşılayıb hal-əhval tutandan sonra dedi:

- Asif müəllim, mən Telmanı yaxşı tanıyıram, amma bu cavan oğlanı birinci dəfədir görürəm.

- Rauf Telmanın oğlu, Sovet İttifaqı Qəhrəmanı Ağaşirin Cəfərovun nəticəsidir.

Sonra məsələni təfsilatı ilə ona danışdı.

Əlihüseyn kişi oğlanı başdan-ayağa süzəndən sonra dedi:

- Vətən yolunda canını əsirgəməyən bir kişinin ocağından belə oğullar çıxar.

Ardınca üzünü oğlanın atası Telmana tutub sözünə davam etdi:

- Sən də sağ ol ki, belə bir övlad yetişdirmisən. Mənim də nəvəm Lənkəran Dövlət Universitetində aqronomluq şöbəsində əyani təhsil alır. Sevinirəm ki, işimizi davam etdirəcək belə gənclərimiz var. Mən kömək etməyə hazıram. Nə vaxt, harada istəsən, yaxınlaşıb, bilmədiyini soruşmaqdan çəkinmə. Çünki sən mənim həmkarım, aqronom olacaqsan. Aqronomluq isə şərəfli peşədir və bilavasitə məhsul istehsalı ilə, əməklə məşğul olmaq deməkdir. Bir vaxtlar "Aqronom oğlan" adlı bir mahnı da qoşmuşdular, tez-tez radioda səslənirdi.

Atanın söhbətindən məlum oldu ki, təzə evlənmisən. Sənin üçün qiyabi oxumaq əlverişlidir. Həm ailənin yanında olarsan, həm də işləyib çörək qazanarsan. Gələn ildən pambıq əkmək fikrini də bəyənirəm. Pambığın zamanı təzədən gəlib. Sağ olsun dövlətimiz! Kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafına hər cür diqqət və qayğı göstərilir. Qiymətlər çox münasibdir. Bir kiloqram xam pambığın qiyməti 65 qəpikdir. Bu yaxınlarda qiymətini yenə artırıblar. Bundan əlavə, yekunda hər kiloqram üçün dövlət 10 qəpik subsidiya verir. Üstəgəl mineral gübrələr güzəştli qaydada satılır. Toxum, texnika sarıdan da heç bir çətinlik yoxdur. Yəqin, qiyməti çox baha olan, Amerikadan alınmış pambıqyığan maşınları görmüsən. Şum traktorlarını, toxumsəpən aqreqatları, kultivatorları və digər texnikanı da bu sıraya əlavə etmək olar. Ən mühüm cəhətlərdən biri odur ki, pambıq həm də əməktutumlu sahədir, kənd adamı üçün iş yeridir, ailələrin qazanc yeri, dolanışığıdır. İndiki dövrdə kim narazılıq edirsə, özündən küsməli, papağını qabağına qoyub yaxşı-yaxşı fikirləşməlidir. Bir də məsləhətim odur ki, müəllimlərinin sözünə yaxşı-yaxşı qulaq as, keçdiyin hər bir fənni dərindən öyrənməyə çalış. Onlar sənə hər bir zaman gərək olacaq. Torpaq sirli aləmdir. Onun dilini, xüsusiyyətlərini bilsən, səndən heç vaxt səxavətini əsirgəməyəcək, bol məhsul yetişdirəcək. Nəticədə sənin, ailə üzvlərinin də gün-güzəranı yaxşı keçəcək. Qiyabi oxumağının digər bir yaxşı cəhəti ondadır ki, oxuya-oxuya həm də təcrübə qazanırsan.

"Hami-tərbiyəçi" sözünü eşidəndə, ola bilsin ki, bəziləri keçmişə qayıtmağımızı əsas gətirib, bizi qınayacaq. Əvvəla, dövrdən asılı olmayaraq, yaxşı, mütərəqqi, yəni cəmiyyətin, insanların xeyrinə olanları qoruyub saxlamaq pis deyil. İkincisi, bilmədiyini öyrənməmək, bildiyini öyrətməmək qəbahətdir. Bu mənada yenə də pambıqçılıqda yüksək nəticələr əldə edən (o, bu mövsüm hər hektardan 60,3 sentner məhsul toplayıb) Əlihüseyn Hacıyevin hami-tərbiyəçi olması xeyirxah işdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Təcrübə məqsədilə əkilən ADN-123 pambıq sortu yüksək məhsul verib

"Azərpambıq ASK" MMC tərəfindən Bərdə rayonunda təcrübə məqsədilə Türkiyənin "Set Tohum" toxumçuluq şirkətinə məxsus ADN-123 tezyetişən pambıq sortu becərilib.

AZƏRTAC xəbər verir ki, ADN-123 pambıq sortunun yetişdirildiyi Lək kəndi ərazisində keçirilən tarla günündə Kənd Təsərrüfatı Nazirliyinin, "Azərpambıq ASK" MMC-nin, "Aqrolizinq" ASC-nin, Türkiyənin "Set Tohum" toxumçuluq və CANSA şirkətlərinin nümayəndələri, eləcə də fermer və sahibkarlar iştirak edib. "Azərpambıq ASK" MMC-nin direktoru Bəhruz Camalov, Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinq şöbəsinin müdir müavini Fərman Kərimov, "Aqrolizinq" ASC-nin şöbə müdiri İsrafil İsmayılov və "Set Tohum" şirkətinin nümayəndələri çıxış edərək ölkəmizdə kənd təsərrüfatının böyük potensiala malik, ənənəvi və əməktutumlu istehsal sahələrindən olan pambıqçılığın dirçəldilməsi ilə bağlı atılan addımlardan, əldə olunan uğurlardan, məhsuldarlığın artırılması yollarından danışıblar. Bildirilib ki, pambıqçılıqda yüksək məhsuldarlığa nail olmağın əsas şərtlərindən biri yüksək reproduksiyalı, yerli şəraitə uyğun məhsuldar toxumlardan istifadədir. Yüksək məhsuldarlıq keyfiyyətli toxumdan başlayır. Diqqətə çatdırılıb ki, "Azərpambıq ASK" MMC ilə əməkdaşlıq edən fermerin sahəsində becərilən tezyetişən ADN-123 sortu məhsuldarlığı ilə seçilir. Digər pambıq sortlarından xeyli gec - may ayının 23-də 2 hektar sahədə əkilən ADN-123 pambıq sortu yüksək məhsul verib. Bu sort Azərbaycanın torpaq-iqlim şəraitinə tam uyğundur.

## “Azərbaycan İnvestisiya Şirkəti” ASC

*şirkətin 2017-ci il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən tərtib olunmuş maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına uyğun olaraq müstəqil auditinin həyata keçirilməsi üçün xidmətlərin satın alınması ilə əlaqədar*

***açıq tender elan edir***

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşagıdakı meyara üstünlük veriləcəkdir:

- Ən aşağı qiymət.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderə iştirakçı qismində, işçi heyətində çalışan ACCA və və ya CPA kvalifikasiya proqramlarına daxil olan bütün imtahanları uğurla tamamlamış peşəkar auditorların sayı ən azı 5 (beş) nəfər olan audit şirkətləri buraxılır.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” 20-ci mərtəbə ünvanında yerləşən ofisindən ala bilərlər (əlaqələndirici şəxs: Mixayil Qomelko, əlaqə telefonu: 488-80-10, faks: 488-80-12, elektron poçt ünvanı: ***mgomelko@aic.az*** ).

İştirak haqqı: 150 (bir yüz əlli) manat.

**Bank rekvizitləri:**
**H/H: AZ54PAHA38090AZNHC0190002317**
**Bankın adı: “Paşa Bank”ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**M/H: AZ82NABZ01350100000000071944**
**SWIFT: PAHAAZ22**

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı statusu almaq və tenderdə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *iddiaçının tam adı və hüquqi statusunu əks etdirən hüquqi sənədlərin notarial qaydada təsdiq edilmiş surətləri (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayışlar;*
- *iddiaçının son 1 (bir) il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*
- *auditor fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyanın notarial qaydada təsdiq edilmiş surəti;*
- *ən azı 5 (beş) işçisinin ACCA və və ya CPA kvalifikasiya proqramlarına daxil olan bütün imtahanların uğurla tamamlanmasını təsdiq edən sənədlər və həmin işçilərin əmək kitabçaları və ya elektron informasiya sistemindən onların əmək müqaviləsi barədə bildiriş;*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
- *tender təklifi (zərfin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *iddiaçının ixtisas göstəricilərini təsdiq edən məlumatlar.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 dekabr 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 dekabr 2018-ci il saat 17:00-dək “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinə (ünvan: Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” 20-ci mərtəbə) təqdim etməlidirlər.

Yuxarıda qeyd olunmuş sənədlərin göndərilməsi qaydası:

- tender təklifi bir zərfdə (iki nüsxədə: əsli və surəti), digər sənədlər isə digər (ikinci) zərfdə göndərilməlidir. Hər bir zərfdə hansı sənədin olduğu üzərində qeyd olunmalıdır (“tender təklifi” və ya “digər sənədlər”);

- tender təklifinin təminatı (bank zəmanəti) “tender təklifi” zərfində təqdim olunmalıdır.

